DİPLOM İŞİ

2018

# Azərbaycanda turizm sektorunun inkişafının regional aspektdən qiymətləndirilməsi (Lənkəran – Astara iqtisadi rayonunun timsalında)




ƏMİRASLANLI ELMİN
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
SABAH QRUPLARI
RƏHBƏR – Z.H.BABAŞOV

5/3/2018

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Dövlət İqtisad Universiteti

**Fakültə:** SABAH qrupları

**İxtisas:** İqtisadiyyat

# *B U R A X I L I Ş   İ Ş İ*

***Mövzu: Azərbaycanda turizm sektorunun inkişafının regional aspektdən qiymətləndirilməsi (Lənkəran-Astara iqtisadi rayonu timsalında)***

**Kurs: IV**

**Qrup: S2_İQT2**

**Tələbə: Elmin Əmiraslanlı**

**Elmi rəhbər: Zamin Babaşov**

***Bakı 2018***

**MÜNDƏRİCAT**

**Giriş ........................................................................................ 4**

**I Fəsil. Azərbaycanda turizm sektorunun mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi** ................................................................................ 7

1. Turizm anlayışı və Azərbaycanda turizmə ümumi baxış .......................... 7
2. Azərbaycan turizminin regional aspektdən investisiya cəlbediciliyinin dəyərləndirilməsi.......................................................................23

**II Fəsil. Azərbaycanın cənub regionunun turizm imkanları: Lənkəran-Astara iqtisadi rayonu..................................................37**

1. Azərbaycanın cənub regionunun tarixi, cografı, social və iqtisadi dəyərləndirilməsi ........................................................................... 37
2. Azərbaycanın cənub regionunun turizmin inkişaf imkanları və turistik qurluşu........................................................................................ 45
3. Azərbaycanın cənub regionunun alternative turizm imkanlarının dəyərləndirilməsi……………………………………………………….51

# GİRİŞ

Turizm müasir dünyamızda bütün ölkələri maraqlandıran, iqtisadi, sosial və ekoloji bir faktdır. Həm təbii və tarixi zənginlikləri, həm də iqlim şərtləri baxımından Azərbaycan çox zəngin bir turizm potensialına malikdir. Ancaq 1991-dən bu günə Azərbaycan dövləti yalnız əlindəki təbii sərvətlərin ixracatı və satışı ilə iqtisadi inkişafa nail olmağa çalışmış, digər sektorları isə diqqətdən kənarda qalmışdır. Bu səbəbdən bundan 20 il əvvəl Sovet ölkələrinin turizm sahəsində ən cox inkişaf etmiş və ən çox əhəmiyyətə malik olan Azərbaycan torpaqları sözü gedən vaxtlarda müəsisələrindən, düşərgələrindən və müalicəvi istirahət mərkəzlərindən faydalana bilməmiş, hətta bunlar istifadə edilə bilməz hala gəlmişdir. Buna baxmayaraq, 20-ci əsrin 2-ci yarsının sonlarında kurort turizmi geniş inkişaf tapmışdı. Habelə, 1984-cü ildə Azərbaycan Xəzərsahili zonada ümumi ittifaq əhəmiyyətli kurort yaradılmşdır. Bunlar, əlbəttə ki, o zamankı Azərbaycan SSR-nın rəhbəri, Azərbaycan Respublikasının Ümumilli lideri Heydər Əliyevin səyləri nəticəsində olmuşdur.

Yeni Dünya erasının başlanğıcında, yəni 1945-ci ildən sonrakı dövürlərdə yaradılmış olan Beynəlxalq təşkilatlar sistemi turizim sahəsindəndə yan keçmədi. Belə ki, 1947-ci ildə “ Rəsmi turist təşkilatlarının Beynəlxalq Birliyi” yaradıldı. Bu qurumun yaradılmasında əsas məqsəd turizmin (istər daxili, istərsə də xarici turizmin) sülhə, qarşılıqlı anlaşmalara, bütün dünyada insanlarm sağlamlığına və çiçəklənməsinə olan təsirini sürətləndirmək və genişləndirməkdir. Hazırda bu təşkilat (1975-ci ildən bəri) Ümumdünya Turizim Təşkilatı (ÜTT) kimi adlanır. Azərbaycan 2001-ci ilin sonlarından bu təşkilata, yəni Ümumdünya Turizim Təşkilatına (ÜTT) üzv qəbul edilmişdir.

Onuda qeyd edim ki, Azərbaycan bu təşkilata (yəni ÜTT-yə) üzv olmamışdan illər əvvəl turizim sahəsində yeniliklər etməyə başlamışdır. Məsələn, 1991-ci ildə Nazirlər Kabinetində Turizm Şöbəsi yaradılması haqqında

qanun qəbul edilmişdir. 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin turizm sahəsinə göstərdiyi qayğının nəticəsində “Turizm haqqında” qanun qəbul edildi.

Azərbaycanda inkişaf dinamikası götürən turizm sahəsi 2001-ci ildə Gənclər və İdman Nazirliyinin tərkibində olsa da, 2006-cı ildə yenidən qurulan Mədəniyyət və Turizm Nazirliyinin tərkibinə daxil edildi. Nazirliyin adında turizm sözünün olması həmin sahənin nə qədər inkişaf etdiyinin göstəricisidir.

Ölkə iqtisadiyyatının turizm sahəsinə yönəlik maraqları nəticəsində turizm potensialı olan regionların durumu geniş müzakirə edildi və bu regionlara potensialın üzrə çıxması üçün böyük məbləğdə investesiyalar yatırıldı. Bu uzaqgörən iqtisadi siyasət, keçmiş dövrlərdə istifadəyə yararsız olan yüzlərlə turistik obyektlərin yenidən bərpa edilib turistlərin istifadəsinə verilməsi nəticəsində ölkəyə çoxlu turist və valyuta axını baş verdi. Buna misal olaraq, 2008-ci ildə 1 milyondan çox turistin ölkəyə gəlməsi və Cənub regionunun istirahət bazalarında bütün günü dolu olması müşahidə edilmişdir. Bir daha aydın oldu ki, Cənub regionu həm istirahət kurortları, həm tarixi abidələri, həm də yerli sakinlərinin qonaqpərvərliyi ilə turistləri özünə cəlb edir.

Azərbaycan Respublikasının bütün regionları turizm baxımdan əlverişli imkanlara malikdir. Lakin Cənub regionunu başqa regionlardan fərqləndirən bir neçə xüsusiyyəti vardır. Onlara misal olaraq deyə bilərik: region ərazisinin əlverişli iqlim şəraitinə, zəngin flora və fauna aləminə malik olması, ərazisndə Şirvan və Hirkan milli parklarının, həmçinin Qızılağac qoruğunun yerləşməsi. Bundan əlavə müalicəvi əhəmiyyətə malik isti su bulaqlarının ərazisində yer alması da mühim amillərdəndir.

Son olaraq qeyd edim ki, diplom işi dissertasiyamda çalışmışam ki, yuxarıda göstərilən fikirləri geniş aspektdə izah edim, son illərdə hökumətin və investorların əsas maraq obyekti olan Cənub regionun potensialını ortaya qoyaraq, regional aspektdən qiymətləndirmə edim. Dissertasiya işində

Azərbaycanda Turizm sektorunun hazırki vəziyyəti, Azərbaycanda turizmə olan baxış, Azərbaycanın və Azərbaycan regionlarının (xüsusi ilə də Lənkəran-Astara bölgəsi) Turizm potensialı, habelə Azərbaycanda Turizm siyasəti nəzərdən keçirilmiş, müəyyən təhlillər aparılmış və təkliflər qeyd olunmşdur.

# I FƏSİL
# AZƏRBAYCANDA TURİZİM SEKTORUNUN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 1. Turizm anlayışı və Azərbaycanda Turizmə ümumi baxış.

### Turizm anlayışı

“Turizm insanarın daimi məkanlarının olduğu yer xaricində daimi olaraq yerləşməmək, sadəcə pul qazanmaq və ya siyasi, ya da hərbi məqsədi izləməmək, sərbəst bir mühit içində, iş, maraq, din, idman, istirahət, əyləncə, mədəniyyət və ya dost-qohum ziyarəti, müxtəif növ maariflədirici seminarlara qatılmaq kimi məqəsdlər ilə şəxsi və ya cəm halında etdikləri səyahətlərdən, getdikləri yerlərdə 24 saatı aşan və ya o yerin bir qonaqlama müəsisəsində ən az 1 gecə müddəti ilə qonaqlamalarından ortaya çıxan iş və münasibətləri əhatə edən bir istehlak hadisəsi, sosial bir hadisə, ağır və inteqrasiya olunmuş bir xidmət və mədəniyyət sənayesidir”[1]

Birləşmiş Millətlər Təşkilatı 1954-cü ildə təşkil etdiyi müşavirədə “Turizm” sözü müzakirə olunmuş, onun beynəlxalq arenada mahiyyəti, mədəni və sosial-iqtisadi əhəmiyyəti müəyyən edilmişdir. Çox keçmədən, yəni 1963-cü ildə BMT Roma konfransını təşkil etdi və burada “turist” anlayışına konkret tərif vermək üçün cəht etdi. Əlbəttə ki, bu konfransda cəhd uğursuzluqla nəticələndi və konkret tərif verə bilmədilər. Amma bu, o demək deyil ki, bu sözün müəyyən bir tərifi yoxdur. Bu sözün müxtəlif elmi ədəbiyyatlarda tərifinə rast gələ bilərik. Məsələn, Turizm latın sözü olan “tournos”-dan götürülüb, hərfi tərcüməsi bir nöqtə ətrafında hərəkət etməyi və ya bir nöqtədən başlayaraq həmin nöqtəyə geri dönməyi ifadə edir.

Demək olar ki, müasir dövürdə hər il dünyada yüz minlərlə insan müxtəlif məqsədlərlə dünyanın 4 bir guşəsinə səyahət edirlər və bu göstəricilər

[1] Hasan Olalı, Turizm dərsləri, İstiqlal mətbəəsi, İzmir, 1978, s.25

ilbəil artmaqdadır. Hələ qədim zamanlardan insanlar öz yaşadıqları ərazilərin ətrafına etdikləri kiçik səyahətlər illər keçdikcə və insanoğlunun maraqları nəticəsində genişlənərək daha uzaq məsafələrə, müxtəif yerlərə, dənizlərə, okeanlara və.s kimi uzaq məsafələrə edilən səfərlərlə əvəz olunmağa başlamışdır.

İllər, yüz illər, min illər keçdikcə turizm anlayışı genişlənmiş və bu sahə dünya ölkələrinin demək olarki hamısına inteqrasiya etmişdir. Bu sahə daha çox insanların yaşayış səviyyəsinin artmasından aslı olub insanların yeni maraqlarını kəşf etmək üçün əhəmiyyət kəsb etmişdir. Bu səbəblərdən asılı olaraq turistik ərazilərə malik olan ölkələr bu sahənin ölkə iqtisadiyyatına müsbət təsir göstərməsi üçün müəyyən investesiyalar ayırmış və beləliklə turizm iqtisadiyyatı da əmələ gəlmişdir. Hal-hazırda dünyada bir çox ölkələrdə turizm iqtisadiyyatı ölkə iqtisadiyyatının böyük bir hissəsini təşkil edir.

**Azərbaycan Turizminə ümumi baxış**

Azərbaycan çox zəngin potensiala sahib təbii sərvətləri ilə bol ölkədir. Təbii sərvətlərdən söz açmışkən, tarixi zənginlikləri və iqlim şərtlərinin münasibliyini göz ardı etmək olmaz. Düzü, uyğun turistik təsisatların əksikliyi, davam edən Dağlıq Qarabağ problemi, siyasi arenada Ermmənilərin Azərbaycana qarşı anti-reklam kompaniyası Azərbaycanın sərvətlərindən, zənginliklərindən və yerləşdiyi münasib mövqeyindən tam istifadəsini məhdudlaşdırır. Lakin bunlara baxmayaraq, Azərbaycanın hal-hazırda turizm siyasəti daimi inkişafdadır.

Tarixə nəzər salsaq yüz illərdən bəri Azərbaycan torpaqları səyahət edənlərin maraqlarını intensiv olaraq öz üzərinə çəkmişdir. Azərbaycanda turizm ilə bağlı işlər başlanğıcını keçən əsrin 80-ci illərindən götürür.

Azərbaycanda təşkil edilmiş turizm və səyahətlərin tarixi ötən əsrin əvvəllərinə yəni, 1932-ci ilə təsadüf etməkdədir. Həmin tarixdə “Proletar

Turizmin və Səyahətlərin Ümumi İttifaq Könüllü Cəmiyyəti" adlı turizm təşkilatı Bakıda şöbəsini fəaliyyətə gətirmişdir. Həmin şöbənin qurulmasının əsas niyyəti kəndli-fəhlə kütlələri arasında turizm və səyahət fəaliyyətlərini inkişaf etdirməklə yanaşı onun siyasi rəhbərliyini möhkəmləndirmək idi.[2]

Sözü gedən zamanda Bakıda "İnturist" mehmanxanasının çalışmağa başlaması ilə bərabər həmçinin "Ümumiittifaq İnturist Səhmdar Cəmiyyəti" də Bakı şəhərində öz fəaliyyətini işə salmışdı. Həmin şöbə xaricdən gəlmiş turistləri qəbul edir, onları yerbəyer etmək və turistlərə müxtəlif növ xidmətlər servis edə bilirdi.

1937-ci ildə Azərbaycan Həmkarlar İttifaqları Şurasının Turzim və sayəhət İdarəsi əvəzinə Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının Azərbaycan üzrə səlahiyyətli təmsilçiliyi yaradılmışdır. Bakıda bir neçə turist düşərgəsi, Hacıkənddə "Turist evi" və Göygöl sahilındəki turist düşərgəsi təmsilçiliyə həvalə edilmişdi.

Zaman keçdikcə Azərbaycanın turizm və səyahət sektorunda müəyyən dəyişikliklər və yeniliklər olmuşdur. Turizmin maddi bazası ildən ilə çoxalmış, vətandaşların istirahət ehtiyaclarını qarşılamaq üçün trustik qatarlar, çay qayıqları və (hal-hazırda da geniş kütlə cəlb edən) Xəzər dənizində gəmi səyahəti kimi yeni xidmət növləri meydana gəlmişdir.

1963-cü ildə ildə Bakıda bir Trustik kulub, Nabranda "Xəzər" trust düşərgəsi, iki il sonra yəni, 1965-ci ildə Bakıda, daha iki il sonra Gəncə, Lənkəran, Sumqayıt, Naftalan və Bakının Mərdəkan qəsəbəsində səyahət büroları açılmışdır. 1970-ci ildə Zaqatalada, 1972-ci ildə Şuşada, 1975-il də Qəbələdə və Xaçmaz rayonun Nabran qəsəbəsində "Dostluq" adında turist düşərgələri, Bakıda isə "Qarabağ" oteli istifadəyə verilmişdir. Əlavə olaraq eyni

[2] Cabir Məmmədov və Sabir Rəhimov. Turizm və onunla əlaqəli Anlayışların İzahlı lüğəti. Qanun nəşriyyatı. Bakı, 2009.s.7.

illərdə Mingəçevirdə və Xankəndində istifadəyə verilmiş səyahət ofislərini də deyə bilərik.

Bu illərdə daxili truzmin inkişafına yönülük addımlar atılırdı. Xarici truzmin maddi və texnik bazasının genişləndirilməsi məqsədi ilə 1973-cü ildə Bakıda, hələ də Azərbaycanın ən böyük otelçilik müəssisəsi olan 1042 yataqlı "Azərbaycan" oteli açılmışdır. 1978-ci ildə İntursit Səhmdar Cəmiyyətinə 200 yataqlıq rahat otaqlara sahib "Moskva" oteli həvalə edilmişdir.

Xarici turistlərin qonaqlanması məqsədi ilə 1978-ci ildə Şəkidə 17-ci əsrə aid olan karvansarayda yenidən qurma işləri görülmüş və 100 yataqlıq trustik müəssisə halına gətirilmişdir. Görülmüş bu işlər sayəsində Azərbaycanda aktiv xarici turizm inkişaf etməyə başlamış və respublika sərhədləri içindən keçən beynəlxalq trustik marşrutların sayı artmışdır.

1980-ci ildən etibarən Azərbaycan truzminin məşhurluğu ildən ilə artmışdır və bu xidmət sektoru inkişaf etdikcə ölkə əhalisinin yaşamına da təsir etməyə başlamışdır. Həmin bu illərdə Azərbaycanın turizm və səyahət təşkilatları SSSR-nin 170-dən çox bölgəsində eyni alanda işləyən təşkilatları ilə əlaqədə olmuşdur. Həmkarlar İttifaqları vasitəçiliyi ilə Azərbaycana istirahət məqsədi iləvgələn əcnəbi turistlərə yüksək dərəcəli xidmət etmək üçün "Bakı Xarici Turizm Bürosu" yaradılmışdır.

Qəbul edilmiş dövlət proqramına görə 1990-cı ilinə qədər 7700, 2000-ci ilə qədər isə 21300 yataqlıq müxtəlif növ trustik müəssisələrin qurulub istifadəyə verilməsi məqsədi qarşıya qoyulmuşdu. İlk dövürlərdə qurulması nəzərdə tutulan müəsisələrin 70 faizi Xəzər sahillərində, 30 faizi isə Azərbaycanın digər bölgələrində qurulması məqsədlənmişdi. Sözü gedən dövürdə geniş və əhatəli turizm sərəncamına görə Xəzər sahillərində, daha dəqiq desək, Şimali Abşeronda Naradaran qəsəbəsi və Xaçmaz rayonunun

Nizoba kəndinin yaxınlarında, Giləzi-Zarat bölgəsində yeni trustik müəssisə və təsisatların yaradılması həmin proqramın məqsəd fəalliyətlərindən bəziləridir.[3]

Təəssüflər olsunki qəbul edilmiş həmin proqramların həyata keçirilməməsi Azərbaycanda bu sahənin inkişafına mənfi təəsirlər göstərmişdir.

Həmçinin onuda əlavə edə bilərik ki, daima Ermənistanın ölkəmizə qarşı apardığı separatçı siyasət və ölkəmizin həmin zamanlarda müharibə şəraitində olması qeyd olunan turistik məqsədlərin həyata keçirilməməsində rol oynayan ən önəmli faktorlardan biridir. Azərbaycan və Ermənistan arasında olan müharibə şəraiti digər sahələrə olduğu kimi turizm sahəsinədə öz mənfi təəssirlərini göstərmişdir.

Turizm mütəxəsislərinin verdiyi məlumatlara  görə sovet dövründə Azərbaycan truzmi ən yüksək inkişaf səviyyəsi 1987-ci ildə olmuşdur. İyirminci əsrin sonlarına yaxın Azərbaycana xarici ölkələrdən 50 min, Sovet Respublikalarından isə 250 minə yaxın turist gəlmişdi. Turizm və Səyahət bürolarının təşkil etdiyi turlarda 2.5 milyondan çox insan iştirak etmişdi. Həmin il ərzində Azərbaycan vətəndaşlarından 10 min insan xaricə, 300 min insan isə Sovet Respublikaları sərhədləri daxilində turizm məqsədli səyahətlər etmişdir. Azərbaycana turist axının çoxalmasına görə Lənkəran və Mingəçevir şəhərlərində 300, Şuşada isə 200 yataqlı yeni otellərin yaradılmasına başlanmışdır.

Turizmin daha da inkişafına təkan verən turizm təşkilatları daha yaxşı xidmət verə bilmək üçün Ağdam rayonunda "Şah-bulağ" trust düşərgəsinin açılmasına nail olmuşdur.[4]

---

[3] Cabir Məmmədov və Sabir Rəhimov. Turizm və onunla əlaqəli Anlayışların İzahlı lüğəti. Qanun nəşriyyatı. Bakı, 2009.s.10

[4] Cabir Məmmədov və Sabir Rəhimov. Turizm və onunla əlaqəli Anlayışların İzahlı lüğəti. Qanun nəşriyyatı. Bakı, 2009.s.10

1985-1986-cı illərdə Sumqayıt, Mingəçevir, Xankəndi, Naxçıvan, Gəncə şəhərlərində açılmış trustik düşərgələrin işləri bir xeyli genişləmiş, 1986-cı ildə Bakıda 948 yataqdan ibarət olan "Abşeron" oteli açılmışdır. Həmçinin Nabran yaxınlarında "Xəzər" və "Dostluq" düşərgələrinin maddi və texniki bazası genişləndirilmiş və gücləndirilmişdir.

1987-ci ildə Azərbaycanda 1837 turizm ofisi açılmışdır. Sözü gedən iş yerlərində 125 mindən çox adam işləmişdir. Yalnız 1987-ci il daxil olaraq həftə sonu turları ilə 375 min nəfər turizm fəalliyətinə qatılmışdır.

1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətində və onun çevrəsində baş verən hadisələrin nəticəsində Azərbaycanda yerli SSR-i vətəndaşları və xarici turistlərin hərəkətləri və bu bölgələrdə fəaliyyət göstərən turizm təşkilatlarının fəaliyyətləri bir müddətlik dondurulmuşdur. Ermmənilərin Azərbaycanlılara qarşı apardıqları düşmənlik siyasəti Azərbaycana yüz münlərcə məcburi köçkünün gəlməsi ilə nəticənmişdir. Azərbaycan hökuməti 16 dekabr 1988 tarixli qərarı ilə Ermənistandan qovulmuş Azərbaycanlıların ölkənin trustik təsisatlarında yerləşdirilməsinə başlanmışdır. [5]

Müharibə illərindəki hadisələrin sosial və siyasi sferada mənfi təsirlərinə baxmayaraq, Azərbaycanda yerləşən turizm şirkətləri SSR-də olan turizm və səyahət agentlikləri ilə əlaqələrin qopmaması və davamlı olması üçün böyük əmək sərf etmişlər. Lakin bütün bu səylər nəticəsiz qalmışdır. Azərbaycanda daxil olmaqla, xüsusəndə Qafqaz ətrafı ölkələrdə siyasi vəziyyətin heçdə ürək açan olmaması turizm sahəsinədə öz mənfi təsirlərini göstərmişdir.

Bu illərdən və bu illərdən sonrakı tarixlərdə baş verən ağır hadisələr nəticəsində ölkənin bütün iqtisadiyyatı ilə barabər turizmdə çökmüş durumda idi. Avropa və Asiyanın qovuşduğu yerdə olmasına baxmayaq Azərbaycan o zamankı dövürlərdə dunya turizm bazarından çox kiçik pay ala bilmiş və bu

---

[5] Ziya bünyadov, Azərbaycan tarixi. AzərNəşr. Bakı.1994. s.92

illərlə dəyiştirilməmişdir. Bunun nəticəsində Azərbaycan, “İnternational Tourist Arrival by Country of Destination”-ın verdiyi statistikaya görə 1995-ci ildə dünya turizminin 0,007 faizini, 1996-cı ildə 0,003, 1997-ci ildə 0,004, 1998-ci ildə 0,003, 1999-cı ildə 0,002 faizini təşkil etmişdir.

Turizmin inkişafına mane olan faktorlar qonaqlama və nəqliyyata da mənfi təsir göstərmişdir və hələ də izi qalmaqdadır. Bu səbəbdən, 1999-cu ildə ölkənin ən böyük oteli olan “Azərbaycan” oteli 1042 yataqlı tutumun cəmi 8 faizini, “Cənub” oteli isə 948 yataqlı tutumunun 4.5 faizini doldura bilmişdir.

Əlbətdəki bu çətin dövürlər artıq geridə qalmaqdadır. Ölkəmiz 1992-ci ildən bu yana Çin, Pakistan, Türkiyə, İngiltərə, İspaniya, İtaliya, Fransa, Rumuniya, İran və başqa ölkələrlə turizm sahəsində bir neçə müqavilə imzalamışdır. Bu razılaşmalar ortaq proekt, sərgi, personal təhsil, konqres və digər fəaliyyətləri əhatə etməkdədir.

Ölkəmizin Qafqaz dağları ətəyində yerləşməsi, ərazisndə olan ovaları, çayları, gölləri, sıx meşələri, zəngin mineral su qaynaqlarının və bir çox iqlim tipinin olması, həmçinin dərin tarixi xəzinəsi ilə turizm imkanları yetərincə yüksək olan ölkədir. 11 iqlim tipindən 9-nun ölkə ərazisində yerləşməsi istirahət və sağlamlıq turizmi üçün ən yaxşı şərtləri təqdim etməkdədir. Həmçinin ölkənin müxtəlif relyef quruluşuna malik olması da turizm baxımından müxtəlif növ təbii ehtiyyatlar saxlamaqdadır. Bundan başqa Azərbaycanda 1000-dən çox mineral su yataqlarıda vardır. Bu şəfalı mineral su qaynaqlarından başqa xüsusi müalicəvi əhəmiyyətə malik Naftalan nefti, duzlu göl müalicəvi palçıqları və bütün bu kimi müalicəvi əhəmiyyətə malik təsisləri ilə Azərbaycan, sağlamlığını qoruyanlara, müalicə almaq və ya istirahət etmək istəyənlərə bu hədsiz imkanları təqdim etməkdədir.

Ölkəmiz 2012-ci ildə Avroviziya mahnı müsabiqəsinə, 2015-ci ildə Avropa oyunların, 2016-ci ildə Formula 1 yarışlarına, 2017-ci ildə həm

Formula1, həm də İslam Həmrəylik oyunlarına ev sahibliyi etmişdir. Bu beynəlxalq səviyyəli oyun və yarışlar ölkəmizə çoxlu sayda turist axınını, həmçinin də ölkəyə xarici valyuta axınını təşkil etmişdir.

Lakin bunları deməklə yanaşı onu da qeyd etməliyəm ki, Azərbaycanın turizmi passiv turizm inkişaf etmişdir. Bu o deməkdir ki, ölkə sərhədlərindən çıxanların sayı gələnlərdən dəfələrlə çoxdur. Xarici turizmin inkişaf səbəbləri aşağıdakı kimidir:

1. Ölkədə fəaliyyət göstərən və xarici turizm ilə məşğul olan təşkilat və firmaların 90 faizi passiv turizm üzrə mütəxəsisləşmişdir.[6]

2. Xarici turizmin inkişaf etməsində ticari məqsədin üstünlük təşkil etməsi, ölkəyə gələn və ölkədən gedən turistlərin 60-70 faizinin məqsədi kommersiya məqsədlidir.[7]

3. Ölkədə neft sənayesinin inkişafı kommersiya və ticari məqsədli turizmin inkişafına dəstək verməsi. Neft sənayəsinin inkişafı ticari məqsədli gələnlərin sayını artırmışdır.

4. Ölkədə ov turizminin inkişafı: Günümüzdə ov turizm sahəsi ilə "Tur" firması məşğul olmaqdadır. Xarici turizmin inkişaf etdirilməsində önəmli paya sahib olan ov heyvanları təqribən 1000 dolları ötməyən qiymətlərlə dəyərləndirilərək müştərilərə təklif edilməktədir.

Azərbaycanda təəssüflər olsun ki, daxili turizmin inkişafı ilə əlaqədar geniş və əhtəli araşdırmalar yoxdur. Lakin buna baxmayaq Azərbaycanın daxili turizmi haqqında aşağıdakı ümumi təsbitləri verə bilərik. Azərbaycanda daxili

---

[6] Cabir Məmmədov və Sabir Rəhimov. Turizm və onunla əlaqəli Anlayışların İzahlı lüğəti. Qanun nəşriyyatı. Bakı, 2009.s.12

[7] A.A.Salmanov və V.S.Dergehov. Böyük İpək yolunun Azərbaycanda Turizmin İnkişafındakı Rolu və Neft Siyəsəti ilə əlaqəsi. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi- İqtisadi İslahatlar Mərkəzi, Elmi əsərlər, 1ci buraxılış, Bakı.2001. s.130

turizmə mənfi istiqamətdə təsir edən bir çox sosial-mədəni, sosial-iqtisadi və sosial-pisixoloji faktorlar vardır.

1. Səyahət mədəniyyətinin formalaşmaması: Yəni yerli xalqın turizm hərəkətlərinə qatılma vərdişinin olmaması və turizm məqsədli istehlakın böyük miqdarda xərc tələb etdiyini düşünməsi.
2. İqtisadi problemlər, gəlir səviyyəsinin aşağı olması, yüksək inflyasiya və turustik məhsulun qiymətinin yüksək olması səbəbi ilə. Turizm şirkətləri ölkəyə olan xarici turizm tələbinin canlanması səbəbi ilə turistik məhsulların qiymətini tamamilə xaricilərə uyğun təyin etməkdə və özlərini yalnızca xaricilərə xidmət göstərən şirkətlər kimi tanıdırlar. Bunun nəticəsində yerli xalq həmin turizm şirkətlərindən uzaqlaşmaqdadır. Bundan əlavə yerli turizm işlətmələrinin yerli turistlərin xüsusiyyətinə uyğun kontingent və qiymət tarazlamaları etməmələri orta və aşağı təminatlı ailələrin tətil ehtiyyaclarını qarşılaya bilməmələrinə səbəb olmaqdadır.
3. Daxili turizm bazarına paket tur təqdim edən turizm agentliklərinin azlığı: Ölkə ərazisndə daxili turizmə istiqamətli tur təşkil edən səyahət agentliklərinin azlığı, üzərində dayanılması vacib olan digər problemləri üzə çıxarmaqdadır.

Ölkəmizdə turizm sahəsi ilə bağlı bütün dövlət siyasətini Mədəniyyət və Turizm Nazirliyi reallaşdırır və bu sahənin inkişaf etdirilməsinə xüsusi diqqət ayırır. Bundan əlavə ölkəmiz Misir, Küveyt, BƏƏ, Macarıstan, Rusiya Federasiyası, İran, İsrail, İngiltərə, Yaponiya və.s kimi ölkələrlə turizmin inkişafı ilə əlaqəli bir neçə müqavilə imzalamışdır. Həmçinin Azərbaycan Ümumdunya Turizm Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) və MDB ölkələrinin Turizm Şürası ilə və başqa ölkələr arası təşkilatlarla turizm sahəsində iş birliyi etməkdədir.

Uzunmüddətli Sovet əsarətindən sonra müstəqillik qazanan respublikamız turizm sahəsində bir neçə ölkə ilə əməkdaşlıq etmək məqsədi ilə müqavilələr imzalamışdır. Birinci müqavilə 1992-ci ilin Dekabr ayının 2-də Türkiyə Cümhuriyəti ilə Azərbaycan arasında Ankarada imzalanmışdır.

Bundan əlavə ölkəmiz aşağıda sadalanan ölkələrlədə turizm yönümlü müqavilələr imzalamışdır:

1. Çin: (07 may, 1994, Pekin)
2. Pakistan: (10 aprel, 1996, İslamabad)
3. Özbəkistan: (27 may, 1996, Bakı)
4. Qırğızıstan: (Aprel, 1997, Bakı)
5. Italiya: (25 sentyabr, 1997, Roma)
6. Gürcüstan: (09 noyabr, 1997, Bakı)
7. Ukrayna: (01 iyul, 1998, Bakı)
8. Bolqarıstan: ( 02 dekabr, 1999, Bakı)

1999-cu ilin Noyabr ayının 5-də Azərbaycan və Rusiya ilə 2000-2002-ci illər arasında mədəni, elmin və təhsil sahəsində əməkdaşlıq məqsədi ilə uzunmüddətli dövlət proqramı qəbul edilmişdir. Növbəti illərdən isə Qazaxıstan, Belarusiya, Moldoviya, Yunanıstan, Yaponiya, İran, Yemən, İraq, İndoneziya,Filippin, Birləşmiş Ərəb Əmirlikləri, Misir və başqa ölkələrlə bu sahədə əməkdaşlıq etməkdədir.

Hal-hazırda Azərbaycan 28-dən artıq ölkə ilə turizm sektorunda birgə əməkdaşlıq məqsədi ilə müqavilələr imzalamışdır. Bundan başqa ölkəmiz və İngiltərə arasında "Azərbaycanda Beynəlxalq Turizm və İstirahət Sənayesinin İnkişafına Yönəlik Niyyət Protokolu"-da imzalanmışdır

Ölkəmizə tətil üçün gələn turistlərin qeydə alınacaq sayda olmaması təəssüf doğurucu bir haldır. Buna səbəb kimi tətil turizminə imkan yaradacaq müəsisələrin az olması, xidmətin qiymət səviyyəsinə görə aşağı olmasını göstərə

bilərik. Bundan əlavə ölkədə əcnəbi və yerli turistlərin istirahət, tətil edə biləcəyi, təbiətdən, dənizdən və günəşdən yararlana biləcəyi müasir təsislər azlıq təşkil etməkdədir.

Lakin son dövürlərdə düzəldilmiş yeni-yeni bir sıra müasir düşərgələr və təsislər sayəsində turist sayısında canlanmalar olduğu görülməkdədir. Beləki, 2006-cı ildə ölkəyə gələn turist sayı 14472 nəfər olduğu halda 2 il sonra yəni 2008-ci ildə bu say 19288 nəfərə qədər artmış və 2012-ci ildə 101431 nəfərə qədər yüksəlmişdir. Lakin növbəti illərdən isə yenidən azalmalar baş vermişdir.

**Cədvəl 1**. Azərbaycana 2011-2016-cı illər arası gələn əcnəbi turistlərin sayı.

| **Ölkələr** | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| **Cəm** | **2.239.141** | **2.484.048** | **2.508.904** | **2.297.804** | **2.006.176** | **2.248.773** |
| **Türkiyə** | 242.606 | 295.549 | 361.413 | 314.476 | 288.620 | 313.341 |
| **Rusiya** | 786.684 | 876.013 | 903.242 | 843.851 | 685.555 | 744.125 |
| **İran** | 407.576 | 283.739 | 143.579 | 131.179 | 149.600 | 248.632 |
| **Britaniya** | 246.46 | 29.125 | 32.841 | 33.563 | 34.892 | 29.514 |
| **ABŞ** | 11.443 | 13.687 | 15.612 | 14.543 | 13.208 | 12.994 |
| **Almaniya** | 11.927 | 16.445 | 13.920 | 13.838 | 15.210 | 13.042 |
| **Çin** | 6.224 | 5.060 | 6.465 | 5.930 | 5.094 | 7.363 |
| **İsrail** | 5.671 | 6.369 | 6.989 | 7.534 | 8.325 | 10.814 |
| **Qazaxıstan** | 28.225 | 25.295 | 28.226 | 29.468 | 27.145 | 31.994 |
| **Türkmənistan** | 3.969 | 4.906 | 4.766 | 5.398 | 6.800 | 7.637 |
| **Özbəkistan** | 14.513 | 18.417 | 18.627 | 19.336 | 15.185 | 16.093 |
| **Hindistan** | 3.715 | 5.048 | 4.791 | 4.853 | 5.584 | 6.012 |
| **Fransa** | 4.799 | 5.870 | 5.919 | 6.858 | 6.637 | 5.785 |
| **Italiya** | 4.857 | 6.767 | 8.566 | 9.605 | 10.379 | 8.654 |
| **Gürcüstan** | 573.063 | 763.251 | 810.390 | 699.532 | 571.648 | 506.306 |

Mənbə: https://www.stat.gov.az/

Önümüzdəki illərdə turizm sahəsindən daha çox gəlir gələcəyi gözlənilməkdədir. Lakin bu gəlirlərin əhəmiyyətli qismini Azərbaycana turistik məqsəddən daha çox iş imkanlarını yerində görmək və təsbit etmək məqsədi ilə gələn xarici iş adamlarının buraxdığı kurslar təşkil etməkdədir.

Gələcək illərdə ölkəyə axın edən turist sayısında artım olacağını düşünərsək, bu halda turizm sahəsinin ölkə iqtisadiyyatına böyü.k qatqı təmin edə biləcək bir sektor halına gələ biləcəyini söyləyə bilərik.

Turizm milli iqtisadiyyatın inkişafına və ictimai rifah səviyyəsinin yüksəlməsinə etdiyi böyük qatqılardan ötəri, dünyada olduğu kimi, ölkəmizdə də beynəlxalq turizmdən daha çox pay əldə etmək üçün böyük səylər xərclənməkdədir.




Şəkil 7. Ümumi daxili məhsula turizmin qatğısı. Mənbə: World Travel and Tourism Council

Turizm ölkədəki işsizlik probleminin həllində böyük qatqılara sahibdir. Nəticədə turizm, ölkə iqtisadiyyatı baxımından əhəmiyyətli gəlir və məşğulluq qaynağı meydana gətirməkdədir.




**Şəkil 8. Turizmin məşğulluq səviyyəsinə qatğısı.** Mənbə: World Travel and Tourism Council. https://www.wttc.org/-/media/files/reports/economic-impact-research/countries-2017/azerbaijan2017.pdf

Ümumilikdə turizm məşğulluq səviyyəsinə təsiri nəticəsində 2016-ci ildə məşğulluq səviyyəsi 609.000 nəfər olmuşdur. Daha sonar 2017-ci ildə isə bu göstəricilər 5.4% artmışdır.

Ölkəmizdə turizm potensialının yüksək olmasına baxmayaraq , turizmin dəyişiminə və inkişafına problemlər yaradan bir neçə əngəllər vardır. Bu problemlərin bəzilərinə aşağıdakıları misal gətirə bilərik:

1. Reklam,
2. Təhsilli personal,
3. Müasir təsislərin azlığı,
4. Nəqliyyat,
5. Gəzinti turlarının azlığı,
6. Qış turizmi üçün lazımlı infrastrukturun azlığı,
7. Bir çox administrativ məskunlaşma yerlərində turizm mərkəzlərinin olmaması,
8. Bu sahəyə sərmayəçilərin qeyri-kafi dəstək göstərməsi.

Təbii ki, ölkəmizdə turizm sahəsinin inkişafını təmin etmək, həmçinin turizmdən gələn gəlirləti artırmaq üçün, yuxarıda göstərilən problemlər öz həllini tapmalıdır.

Mehmanxana və mehmanxana tipli müəsisələr

Azərbaycanda turistlər üçün düzəldilmiş mehmanxana və bu tipli müəsisələr ölkəmizin demək olarkı bütün rayonlarında vardır və ölkəmizə gələn turistlərə qonaqlamaq imkanı yaratmışdır. Rayonlarımızda,xüsusəndə Bakı-Qaradağ, Hacıkənd, Mingəçevir, Naftalan, Qəbələ, Lənkəran, Yalama bölgələrində ölkəmizə gələn turistlər üçün fəaliyyət göstərən çoxlu mehmanxanalar vardır.




**Şəkil.5.** Mehmanxana və mehmanxana tipli müısisələrdə yerləşdirilmiş vətəndaşların sayı. Mənbə: https://www.stat.gov.az/

Azərbaycanda turizm mövsümü əsasən May ayından Oktyabr ayınadək maksimum 6 ay davam edir. Lakin Bakıda və bir çox rayonlarımızda mehmanxana və turist düşərgələri ilin bütün ayı fəaliyyət göstərməkdədir.

Ölkəmizdə ümumən 500-dən çox istirahət mərkəzləri vardır. Ölkəmiz turizm imkanlarına baxdıqda ildə 1 milyondan çox turist qarşılama imkanına sahibdir. Lakin mövcud mehmanxanaların, turist düşərgələrinin yaxşılaşdırılması və yenilərinin inşa edilməsi növbəti illərdə qarşıya qoyulan şərtlərdəndir.

**Cədvəl 5. Mehmanxana və mehmanxana tipli muəsisələrin əsas statistik göstəriciləri.**

| Göstərici | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| Mehmanxana, mehmanxana tipli müəssisələrin sayı | 508,0 | 514,0 | 530,0 | 535,0 | 536,0 | 548,0 |
| Otaqların sayı | 14815,0 | 15898,0 | 16559,0 | 17363,0 | 17953,0 | 20330,0 |
| Birdəfəlik tutum | 31979,0 | 32834,0 | 33951,0 | 35652,0 | 37278,0 | 40042,0 |
| Turistlərin sayının maksimum olduğu ay ərzində istifadə olunan otaqların sayı | 9148,0 | 10148,0 | 10661,0 | 11045,0 | 11646,0 | 13933,0 |
| Turistlərin sayının maksimum olduğu ay ərzində istifadə olunan otaqların sayı | 18746,0 | 19152,0 | 20100,0 | 21181,0 | 22739,0 | 26290,0 |
| Nömrələrin dərəcələrə görə bölüşdürülməsi | 0,0 | 0,0 | 0,0 | 0,0 | 17953,0 | 20330,0 |
| lüks nömrələr | 2645,0 | 2627,0 | 2509,0 | 2419,0 | 2476,0 | 2683,0 |
| I dərəcəli nömrələr | 5974,0 | 6429,0 | 6266,0 | 6970,0 | 7068,0 | 8140,0 |
| turist nömrələri | 6196,0 | 6842,0 | 7784,0 | 7974,0 | 8409,0 | 9507,0 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

Böyük İpək Yolu layihəsinin Azərbaycan Turizminə qatğısı

Asiya və Avropa arasında indiyə qədər əl atılmamış turizm qaynaqlarını işlək vəziyyətə gətirmək üçün Dünya Ticarət Təşkilatı (DTT) 1993-də Böyük İpək Yolu layihəsini inkişaf etdirməyə qərar verdi. On iki minlik kilometrlik yola bağlı uzun müddətli layihənin ana xətləri 1994-cü ildə Səmərqənddə 19 ölkə təmsilçilərinin qatıldığı bir toplantıda təyin olundu. O tərixdən bəri də Azərbaycanda bu mövzu ilə bağlı işlər görülməktədir. Dünya Ticarət Təşkilatı ilk mərhələdə Azərbaycan və Mərkəzi Asiya ölkələri, Çin, Hindistan, Pakistan,

İran, Turkiyə, Yunanıstan arasında Böyük İpək Yolu layihəsini ceşidli yönləri mövzusunda ortaq iş görməsini və turizm işbirliyi etməsinə məqsədlənmişdir. Daha sonra isə Böyük İpək yolunun başladığı və bitdiyi ölkələr, yəni Koreya, Yaponiya, Cənub-qərbi Asiya və Ərəb ölkələri ilə Avropa dövrəyə keçəklər. Beləcə, çox yönlü və çox ölkəli bir layihə ortaya çıxacaqdır. Bu məqsədə yönəlik olaraq indiyə qədər Azərbaycan, Yaponiya, İran və Türkiyədə toplantılar keçirilmişdir.

8 sentyabr 1998-ci ildə Bakıda təşkil edilən və32 ölkə ilə 12 beynəlxalq təşkilatın 150 təmsilçisinin qatıldığı TRASEKA konfransının sonunda imzalanan yüzilin ən böyük nəqliyyat və ticarət anlaşması ilə İngiltərədən başlayaraq Yaponiyaya qədər uzanan yeni nəqliyyat koridoru rəsmi olaraq tətbiq olunmaya başladı. Bu layihə ilə yeni quru və dəmiryolların təşkili və köhnələrin modernləşdirilməsi, körpü, sərhəd və gömrük keçidlərinin yenilənməsi görülməktədir.

Bu layihəyə əsasən Azərbaycan sərhədləri daxilində beynəlxalq standartlara uyğun təsisatlar qurmalı, turistlərin marağını cəlb edəcək, onların rahatlığını təmin edəcək abu-hava yaradılmalıdır. Bu şərtlər yerinə yetərsə əgər Azərbaycan sadəcə Qafqazda deyil, bütün Müstəqil Dövlətlər Birliyi ölkələr içərisində və Yaxın Şərq ölkələri arasında turistik bir mərkəz olacaqdır.[8]

TANAP layihəsinin Azərbaycana qatğısı

2012-ci il 27 iyun tarixində Türkiyənin İstanbul şəhərində Trans Anadolu Qaz Boru Kəməri (TANAP) adlı layihəyə imza atıldı. Bu layihə Azərbaycanın Gürcüstan və Türkiyə vasitəsi ilə Avropanı qazla təmin etmək üçün imzalanmışdır. Avropa Birliyi ölkələrini enerji ilə təmin etmək Azərbaycanın Avropada, əlalxüsüs da, dünayada siyasi çəkisini artıracaqdır. Bu layihə üçün

[8] S.Hüseynov, E.Zəngin. Azərbaycan Turizm. Elmi konferans materialları. 2008. s.2

nəzərdə tutulmuş milyardlarla vəsait yenidən xüsusi bir vahidlə ölkə büdcəsinə geri qayıdacaqdır. Həmçinin bu layihə Azərbaycanı dünya arenasında "güclüllər" arasına əlavə edəcək, həmçinin də xarici ölkə vətəndaşlarının ölkəmizi fərqli sferadan görməsini təmin edəcəkdir. Hazırda layihənin iş təşkili gücləndirilmiş iş rejimi ilə davam edir. Layihənin istifadə tarixi bu ilə planlaşdırılır.

## 2. Azərbaycan turizmininin regional aspektdən investisiya cəlbediciliyinin dəyərləndirilməsi.

Hazırki müasir dövrümüzdə Turizm sektoruna investisiya qoyuluşlarının çox hissəsi ölkəyə işgüzar səfər edən sahibkarlar tərəfindən olunur. Ölkəyə edilən belə səfərlərdən sonra ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyalar ölkəyə kapital axınlarını, yeni-yeni iş yerlərinin, texnologiya və s. kimi imkanların ölkəyə gəlməsini təmin edir. Nəticə etibarı ilə ticarət balansında yüksəliş əldə edilir.

Turizm sahəsinə qoyulan daxili və xarici investisiyalar ölkədəki yerli sahibkarlar üçün də yeni-yeni imkanlar yaradır. Ölkə iqtisadiyyatına investisiya cəlb olunmasında turizm sektorunun payı olduqca yüksəkdi. Belə ki, ölkəyə gələn turistlər ölkədəki hazırki durumu və investisiya imkanlarının nə dərəcədə əlverişli olub-olmadığı ilə tanış olurlar. Turizmə qoyulan investisiyalar nəticəsində ölkədə turizm sektoru ilə yanaşı digər sahələr də inkişaf edirlər.

Nəqliyyatın, telekommunikasiya xətlərinin, infrastrukturun və s. bu kimi sahələrin yüksək səviyyədə olması ölkəyə xarici investisya axınını təmin edən başlıca amillərdəndir.




**Şəkil. 1.** Xarici investisiyaların strukturu. Mənbə: https://www.stat.gov.az/

Ölkəmiz son zamanlarda iqtisadiyyata xaricdən gələn investisiya axınlarını ölkəyə cəlb edilməsində bir neçə tədbirlər həyata keçirmişdir. Bunlara misal olaraq:

1. Bir pəncərə sisteminin tətbiqi,
2. Açıq qapı siyasəti,
3. Vahid valyuta məzənnəsinin formalaşması,
4. Xarici sahibkarların hüquq və mənafelərinin qorunması üçün hüquqi əsasın gücləndirilməsi,
5. Birdən çox xidmət sahəsinin elektronlaşdırılması.

Respublikamızın yararlı cografi-iqtisadi mövqesinin olması, turizm sektorunun tərəqqisi üçün yetərincə əlverişli imkanlar yaradır.

İnvestorların ölkəmizə cəzb olunmasının bir çox müsbət tərəfləri vardır. Bunlara misal olaraq:

- Ölkəmizdə xarici investorların rahat işləməsi üçün münbit şəraitin olması,

- Qafqaz regionunda hər bir nəfərə düşən yüksək Birbaşa xarici investisya göstəricisinin olması,
- Dinamik tərəqqidə olan açıq iqtisadiyyat,
- Əlverişli cografi-iqtisadi mövqedə olması,
- Potensial işçi qüvvəsinin çoxluğu.

Lakin ölkəmizdə Turizm sahəsinə qoyulan investisiyaların həcmi azlıq təşkil etməkdədir. Buna səbəb kimi turizm sahəsində olan problemləri misal gətirə bilərik:

1. Ölkəmizdə var olan turizm imkanlarının olmasına baxmayaraq bu imkanların yetərincə tanıdılmaması,
2. Otellərin, turist yataqxanalarının və s. bu kimi turizm obyektlərinin tikintisinə böyük maliyyə sərf edildiyindən sahibkarların bu sahəyə marağının azalması,
3. İnfrasturukturun, nəqliyyat yollarının və s. kimi sahələrin tələblərə cavab verməməsindən dolayı investorları cəlb etməməsi,
4. Bütün ölkələrdə olduğu kimi ölkəmizdə də Turizm sahəsinin daha çox xərc tələb etməsi səbəbi ilə yerli sahibkarların bu sahəyə az maraq göstərməsi.

Yuxarıda göstərilən problemlərin həlli yolunda bir sıra tədbirlər həyata keçirilsədə tam olaraq nəticə əldə olunmamışdır. Ölkəmizin turizm sahəsində alternativ ölkələrinin olması, bu sahəyə olan kapital azlığı ölkəmizdə turizm sahəsinə mənfi yönümlü təsir edən başlıca amillərdəndir.




**Şəkil.2.** Ümumi daxili məhsulda qeyri-neft sektorunun dinamikası. Mənbə: https://www.stat.gov.az/

Respublikamızın rayonlarında turizm sahəsinin tərəqqi etdirilməsi naminə müstəqillik əldə olunandan bu yana bir neçə dövlət proqramı hazırlanıb həyata keçirilmişdir. Lakin həyata keçirilən bu proqram və islahatlarla qane olmaq lazım deyildir. Regionlarımızda turizm sahəsinin inkişaf etdirilməsi naminə əlavə olaraqda işlər görülməlidir. Bunlara misal olaraq:

- Rayonlarımızın turizm imkanlarını tanıtmaq və xarici investorları buraya cəlb etmək,
- Regionlarda nəqliyyat sistemini, telekomminikasiya xətlərini, infrasturukturu yaxşılaşdırmaq,
- Regionlarda turizm sahəsinə investisiya qoyan sahibkarlara güzəştlər tətbiq etmək,

- ➢ Dünya təcrübəsinə əsaslanaraq investisiya cəlb olunmasını öyrənmək və ölkəmizdə bu sahəyə tətbiq etmək.

Azərbaycan torpaqlarının bir çox bölgə və regionu turizm potensialı baxış bucağından özünə xas xüsusiyyətlərə malikdir. Xüsusilə Abşeron yarımadasının şimal və Xəzər dənizi sahilləri, eyni ilə Quba-Xaçmaz, Lənkəran ovalığı, qərb regionu turizm potensialı yüksək olan ərazilərdir. Ölkəmizdə turizm sahəsinin tərəqqisini sürətləndirmək, ölkəmizin turizm imkanlarını dünyaya tanıtmaq və əcnəbi turistlərin maraqlarını ölkəmizə yönəltmək naminə 2003 –cu ildə Respublikamızda 7 turizimmarşurutu təyin edildi. Onlar: Bakı-Balakən, Bakı-Xacmaz, Bakı-Astara, Bakı-Qazax və əlavə olaraq Bakı-Abşeron, Bakı-Qarabag (Ermənistanın həyata keçirdiyi işğalçı siyasət nəticəsində hal-hazırda fəaliyyət göstərmir.), Bakı-Naxcıvan.




**Şəkil.3.** Abşeron rayonu. Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

**Abşeron yarmadası**

Təbii şərtləri, istirahətə uyğun iqlimi, ılıq və şəffaf sulu dənizi, incə qumlu çimərlikləri, müalicəvi məqsədli istifadə olunan palçığı və şəfalı suları, nəqliyyat və infrastruktur baxımdan inkişaf etmiş olması göz önünə gətirilsə ölkədə istirahət komplekslərinin yaradıla bilinəcəyi ən önəmli bölgələrdən biridir. Belə ki, Azərbaycandakı müalicəvi məqsədli sanatoryaların çoxu buradadır. Məsələn, ürək-damar, sinir sistemi, mədə-bağırsaq, xəstəliklərini müalicə edən, bir çox istirahət mərkəzi var olmaqdadır.[9]

Həmçinin, bu yarmada Azərbaycanın uşaq-gənclik parklarının ən geniş olduğu bir düşərgə mərkəzidir. Son illərdə burdakı sağlıq yurdlarının təmiri və yenilərinin qurulması üçün addımlar atılır. Abşeron yarmadasının termal turizmində, Suraxanı, Şıx, Bilgəh, Buzovna, Pirşağı və Mərdəkan hidrogen sulfidli su qaynaqları böyük önəm daşıyır.

[9] Cabir Məmmədov və Sabir Rəhimov. Turizm və onunla əlaqəli Anlayışların İzahlı lüğəti. Qanun nəşriyyatı. Bakı, 2009.s.78




**Şəkil.4.** Quba-Xaçmaz iqtisadi rayonu. Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

## Quba-Xaçmaz

Azərbaycanın Şimal-şərq hissəsində yerləşən Quba-Xaçmaz, böyük inkişaf perspektivi olan istirahət-turizm bölgələrindən biridir. Bu bölgənin əlverişli nəqliyyat yolları, mənzərə gözəllikləri, dağlıq hissəsi, Xəzər dənizin Yalama-Nabran, Giləzi-Zarat sahillərində termal mərkəzləri, Qalaaltı, Xaltan və başqa mineral bulaqlar, istirahət və müalicəvi önəmi artıran özəlliklərdəndir.

Özəlliklə 1970-ci ildən bəri Dəvəçi bölgəsindəki 350 nəfərlik Qalaaltı mineral suyu Qərbi Ukraynadakı Naftusiya suyu ilə eyni müalicəvi özəlliyə sahibdir. Ayrıca Xəzər dənizinə və dəmiryol xəttinə yaxınlığı, dəniz səviyyəsindən 500 metr yüksəklikdə yerləşməsi, son dərəcə gözəl və yaşıl peyzajı, tərəvəzçilik, bağçılıq və heyvandarlığın inkişaf etdiyi bölgələrinin iç-içə olması, təmiz və sağlıq verici havası, Qalaaltının qısa zamanda sağlıq və

istirahət mərkəzi olaraq tanınmasına yol açmışdır. Yaz aylarında fəftə sonları, yalnız Bakı və Sumqayıtdan gələnlərin sayı 2000-ə çatır. Bütün bir il ərzində gələn ziyarıtçi sayı 100.000-ə yaxındır.




**Şəkil.5.** Lənkəran iqtisadi-coğrafi rayonu. Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

## Lənkəran bölgəsi

Xəzər dənizi sahilindəki Lənkəran ovalığı da gələcək üçün dəyər daşıyan rekreazyonal istifadə ərazilərindən biridir. Ovalığınn cənubu subtropik iqlimi, qumlu çimərlikləri və gözəl mənzərəsi, inkişaf etmiş infrastrukturu, bütün il tərəvəz-meyvə yetişdirən kənd təsərüffatı, su qaynaqları və bulaqları, rekreazyonal-turizm komplekslərinin yaradılmasına əsas verir. Lənkəran bölgəsində Meşəsu və İbadı mineral su qaynaqları vardır. Tərkibində azot və

metan olan bu sulardan duş qəbul edərək, oynaq, qadın xəstəlikləri, dəri, ürək-damar xəstəliklərini müalicə etmək olur. Meşəsuda 150 yataqlı bir təsis vardır.




**Şəkil.6.** Aran iqtisadi rayonu. Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

## Qərb bölgəsi

Azərbaycanın Şərqinə görə Qərb bölgəsində turizm sektoru az inkişaf etmişdir. Bu geniş ərazilərdə mövsümlük fəaliyyət göstərən müalicəvi mərkəzlər yer almaqdadır. Kiçik Qafaqaz dağları ətəklərində yer alan Naftalan şəhərində dünyada tək olan müalicəvi məqsədli neft-palçığı tapılmaqdadır. Ayrıca bu şəhərdə 1500 yataqlı və bütün il ərzində xidmət verən sağlıq mərkəzi də yer almaqdadır. Naftalan müalicəvi nefti, Strabondan alınan məlumatlara görə çox qədim dövrlərdən bu yana istifadə edilməkdədir. Bəhs edilən bu dövrlərdə

Anadoludan, Ümumqafqazdan, İrandan və Hidistandan müalicə məqsədi ilə gələn insanlarda geri qayıdanda özləri ilə palçıqlı nefti aparırdılar.

19-cu əsrin sonlarında Naftalan Qərb ölkələrinin diqqətini çəkmiş və 1887-ci ildə Alman mühəndisin bu palçıqlı neftdən götürdüyü nümunədən ölkəsində məlhəm hazırlamışdır.[10] Günümüzdə müxtəlif növ xəstəliklərin müalicəsi üçün Naftalanda yerləşən təsislərə Azərbaycan və başqa ölkələrdən minlərlə turist gəlir.

Ölkəmizdə belə təsislərin gündəlik qonaq qəbul etmə tutumu 30.000 adama yaxındır. Bununla yanaşı bu təsislərdə 120.000 adamın məşğulluğu təmin edilib.

Şuşa iqlim müalicə mərkəzi olaraq ölkəmizdə çox məşhurdur. Şəhərin quru və təmiz havası və ultrabənövşəyi şüaların müalicə edici xüsusiyyətinə görə bura İsveçrənin Davos sağlamlıq mərkəzindən daha üstün olduğu bildirilir. Digər tərəfdən Şuşada Şırlan və Turşsu təbii mineral suları, həmçinin əvəzsiz dağ mənzərələri bu yerin turizm potensialını artıran faktor olmuşdur. Ancaq bu yerlərin Ermənistanın işğalı altında olması səbəbi ilə fəaliyyətini keçici olaraq dayandırmışdır. Tərtər çayı vadisində 2100-2200 metr yüksəklikdəki İstisu mineral su mənbələri saflığı və müalicəvi xüsusiyyətinə görə dünyada məşhur olan Çex Respublikasının Karlovary mineral suları ilə eyni xüsusiyyətləri paylaşır. Bu yerlərə daha çox yay aylarında gəlinir və əsasən kirayə evlərdə və yaxud çadırlarda yerləşmək mümkündür.

[10] Zakir Eminov. Azərbaycanın fiziki və iqtisadi coğrafiyası. Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutu Nəşriyyatı, Bakı, 2002, s.103

**Azərbaycanda turizm mərkəzləri və turistik yol istiqamətləri.**

Ölkəmizdə Bakıdan başlayaraq rayonlarımızın müxtəlif turizm hissələrinə qədər uzanan və turistik dəyəri olan marşurut xətləri vardır. Həmin marşurutlar aşağıdakı kimidir:

1. Bakı-Şamaxı-Pirqulu

Bu turistik yol Böyük Qafqaz Dağlarının cənub-şərq yamaclarından keçir və qonaqlama məkanları Şamaxıda yerləşən turistik otel və pirqulu kəndində inşa edilən ağac evlərdir. Şamaxıda olan tarixi zənginliklər və yaxınlığındakı Pirquluda yerləşən bol su qaynaqları və yaşıl çəmənlikləri ilə vazkeçilməz istirahət yerlərindən biridir. Həmçinin Şamaxı rəsədxanasıda rayon ərazisinə ən çox diqqət cəlb edən yerlərdəndir. Qış fəslində qar yağan bölgələrdə xizək sürməkçün əlverişli ərazilər vardır, buna görədə bura müxtəlif növ gəzinti turları təşkil olunur. Həmçinin sadə dağ evlərində də gecələmək mümkündür.

2. Bakı-Gəncə-Göygöl

Gəncə şəhırinin tarixi zənginliyi , gözəl Göygöl gölünün varlığı turistləri bu yolu istifadə edərək ərazidə yerləşən gözəl guşələri gəzmələrinə səbəb olan başlıca nədənlərdəndir. Dəniz səviyyəsindən 1566 metr yüksəklikdə olan bu göl 1139-cu ildə Gəncə şəhərində meydana gələn böyük zəlzələ nəticəsində Ağsu çayının üzərinə Kəpəz dağının qayaları aşmış və nəticədə möhtəşəm Göy-göl gölü yaranmışdır. Bu ərazidə içərisində qiymətli bitki və heyvanat aləmi olan Göygöl milli parkıda yerləşir. Gəncədən bu əraziyə döngəli dag yolu ilə gəlmək mümkündür. Ərazidə turistlərin dincəlməsi və istirahət etmələri üçün bir çox istirahət mərkəzləri mövcuddur.

3. Bakı-Qəbələ, Bakı-Şəki

Böyük Qafqaz dağlarının cənub ətəklərindən keçən bu turistik yol bir istiqamətlə Qəbələyə, digər istiqamətlə isə Şəkiyə nəqliyyatı təmin etməkdədir.

Qəbələ rayonunun 20 km-lik kənarında köhnə Qəbələ şəhərinin qala qırıntıları (Qafqaz Albaniyasının paytaxtına aid, b.e. 6-7 yüzilliklər), Həzrəkənddə 15-ci əsrə aid 2 abidə məzar və b.e.ə 1-3-cü minilliklərə aid məzarlar diqqət cəlb edir. Qəbələ rayonunun ərazisində çoxlu təzə düzəldilmiş müasir turistik otellər və turistik düşərgələr mövcuddur. Həmçinin burada qış turizm imkanları olduqca yüksəkdir. Buna misal olaraq rayon ərazisində yerləşən "Tufandağ" Qış-Yay turizm mərkəzini qeyd edə bilərik.

Şəki rayonuda həmçinin öz növbəsində hava şəraiti, tarixi və mədəni qaynaqları və.s kimi əlverişli turistik potensiyalı ilə turistləri özünə cəlb etməkdədir.

4. Bakı-Quba-Yalama

Bu yol Samur-Dəvəçi ovalığı və Böyük Qafqaz dağlarının şimal-şərq yamaclarından keçib gedir. Yol boyunca çöl mənzərəsi və yaşıl çəmənlikləri gur bolsulu çayları seyr etmək mümkündür. Turistik yol bir xətlə Qubaya digər xətlə isə yalamaya nəqliyyatı təmin edir. Quba rayonu qədim zamanlardan insanların yerləşim yeri olmuşdur və 1744-1789-cu illərdə Quba xanlığının mərkəzi şəhəri olmuşdur. Ərazisində 19-cu əsrə aid hamamlar, cümə məscidəlri və başqa tarixi məscid və qədim ənənəvi evlər gəzib görməli yerlər arasındadır. Rayon ərazisində həmçinin çoxlu təbii və mineral su yataqları mövcuddur.

Xəzər dənizinin sahilində yerləşən Yalama isə daha çox çimərlikləri və sıx meşəlikləri ilə diqqəti özünə cəlb etməkdədir. Bu ərazi paytaxt Bakıya və Xəzər dənizi sahilində yerləşməsi səbəbi ilə istirahət üçün ən çox gedilən yerlərdəndir.

5. Bakı-Lənkəran-Astara

Daha çox Xəzər dənizi sahilindən keçən bu yol üzərində yerləşən rayonlarla yanaşı (Səlyan, Biləsuvar, Cəlilabad, Masallı) Lənkərana, daha sonra isə Astara rayonuna nəqliyyatı təmin edir. Bölgədə var olan subtropik iqlim qurşağı, çimərliklər və gözəl mənzərəli yerləri, inkişaf etmiş infrastrukturu, mineral və

təbii su qaynaqları gələcək üçün önəm daşıdığından müasir tipli istirahət mərkəzlərinin daha çox düzəldilməsinə imkan yaradır. Bu bölgə xəzər dənizi ilə əhatələnməsi, qərbində və cənub-qərbində Talış dağlarının olması bu yeri önəmli turistik məkanlardan birinə çevirir. Həmçinin burada turistik otellər,düşərgələr və hostellər var.

Azərbaycanda Turizm Siyasəyinə görə turizmin qiymətləndirilməsi

Ölkədə Turizm sektorunun inkişaf etməsi üçün xarici və yerli investorların bu işə cəlb edilməsi ilə yanaşı, aşağıdakı məsələlərə diqqət edilməlidir.

1. Bazar İqtisadiyyatında işləyən qurumların fəaliyyəti iqtisati səmərililiyinə təşkil edilməlidir. Bu səbəblə, turizm müəssisələrinin yer seçimi, turist qəbulları və turist xidmət imkanları müəyyən edilərək, sərmayəli işləmələrinə imkan yaradılmalıdır. Sahil ərazilərində olan turizm müəssisələri tək-tək analiz edildiyində Abşeron və Yalam-Nabran bölgəsində olan qısa müddətli istirahət mərkəzlərinə tələbin yüksək olduğu görülməktədir. Buna görə də ilk öncə bu bölgələrdə yerləşən istirahət və müalicə müəssisələrinə investesiya yatırılmalıdır. Əlavə olaraq, Quba, Qusar, Xaçmaz, Şamaxı, İsmayıllı bölgələrində istifadə edilməkdə olan turizm müəssisələrinin yenidən qurularaq xarici turizmə qapı açması ölkə iqtisadiyyatına böyük fayda verəcəkdir.[11]
2. Turizm sektorunun inkişaf etdirilməsi üçün ölkənin milli mənfəətlərinə uyğun real siyasətlər izlənməlidir. Bu gün siyasətin ən böyük vəzifəsi qarşılıqlı faydalılıq əsasında işləyən ortaq quruluşların sayısının artırılması olmalıdır.

[11] A.A.Salmanov və V.S.Dergehov. Böyük İpək yolunun Azərbaycanda Turizmin İnkişafındakı Rolu və Neft Siyəsəti ilə əlaqəsi. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi- İqtisadi İslahatlar Mərkəzi, Elmi əsərlər, 1ci buraxılış, Bakı.2001. s.135

3. Turizm xidməti verən sosial infrastrukturun inkişaf etdirilməsi, bu məqsədlə turizm müəssisələrinin infrastruktur qurumlarının yaradılması gərəklidir.
4. Turizm sektorunun inkişafı üçün dövlət siyasət yürütməli, bu siyasətin ətraflı inkişafı ilə bağlı proqram hazırlamalı və mütamadi həyata keçirməlidir. Yəni dövlət mütamadi bir turizm siyasəti tətbiq edərək yerli və xarici iş adamlarını və investorları bu sektora investesiya üçün təşviq etməlidir.
5. Turizm sektorunun inkişafı üçün turizm və tur şirkətlərinə böyük ehtiyac vardır.
6. Ölkədə turizm mövzusunda dərs proqramları tətbiq edən universitetlərə dəstək verilməlidir.

Bu gün turizm sektorunda yetərli bilgi və təcrübəyə sahib olmayan insanların işlədiyi şirkətlər fəaliyyət göstərməktədir. Bunun qarşısını almaq üçün 2006-cı ildə Azərbaycan Turizm Universiteti açıldı və xaricdən işçilər dəvət edildi.

# II FƏSİL

# AZƏRBAYCANIN CƏNUB REGİONUNUN TURİZM İMKANLARI: LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONU

## 1. Azərbaycanın cənub regionunun tarixi, coğrafi, sosial və iqtisadi dəyərləndirilməsi.

### Tarixinə aid bilgilər:

Azərbaycanın ən qədim və ən gözəl bölgələrindən olan Lənkəran Xəzər dənizinin cənub-qərb sahilində, Lənkərançayın Xəzər dənizi ilə qovuşduğu yerdə yerləşməktədir. Lənkəran adının toponomiyası hələ də mübahisələdir. Lənkəran və ətraf bölgələrinin tarixi məşhur Yunan tarixçisi Herodotun verdiyi məlumatlardan ibarətdir.

Lənkəran sözünün kökünə iki baxış bucağından baxmaq lazımdır. Farscadan və talışcadan gələn Ləngərkünan, Ləngəran, Langaran, Lyangaran kəlmələri bugünkü Lənkaran kəlməsinin başlanğıc formalarıdır. Bunlardan Ləngərkünan – ləngər və künan – yer, məkan deməkdir. Ümumi olaraq, lövbər anlamına gəlir. Bu adın yaranmasının səbəbi, dünyanın fərqli-fərqli yerlərindən İrana alış-verişə, ziyarətə, təhsilə, diplomatik işlərə gedən və İrandan gələn gəmilərin burada lövbər atıb durmalarıdır.[12]

Bütün bunlar onu göstərir ki, Lənkəranın keçmişi çox qədimlərə dayanmaqdadır. Bir kilometr aralıda Digəh kəndində tapılan Dive-lona qəbiristanlığının bizim eradan əvvələ aid edilməsi bunun sübutudur. 1869-cu ildə Səid Əli ibn Kazım Bəy tərəfindən yazılmış "Cəvahirnameyi – Lənkəran" kitabında daha əvvəl 9-cu əsrdə Lənkəranın Bellebur Qalasında olduğu deyilir.

[12] Ziya bünyadov. Azərbaycan tarixi. AzərNəşr. Bakı.1994.s.504

Qədim zamanlarda Talılş kimi tanınan buralar Azərbaycanın ən qədim insan yaşayan yerlərindəndir. Burada aparılan arxeoloji araşdırmalar zamanı tapılan maddi-mənəvi abidələri tunc dövrünə, yəni bizim eradan əvvəl 2-3-cü əsrlərə aiddir. Azərbaycan ərazisində dövlətlər yarandığı zaman Talış, Midya və Atropatena dövlətinin tərkibində idi.

Orta əsrlərdə Lənkəranın ən parlaq tarixi Ərəb işğalçılarına qarşı etdiyi qəhrəmanlıq mübarizəsi olaraq bilinir. Lənkəranda olan Bəz(d)z qalası Babək hərakatının ən böyük işarətədir. Bu qala Xürrəmilərin əsas dayaq mərkəzi olmuşdur. Qalada tapılmış yerüstü materiallar 833-cü ildə Həmadan döyüşündə məğlub olduqdan sonra Bizansa gedən Xürrəmi üsyançılarının həyatda qalanlarının təkrar vətənə - Bəllabura, Babəkin yanına geri gəldiklərini isbat edir.[13]

18-ci əsrin əvvəllərində Lənkəran Xəzər dənizi sahilində önəmli bir liman şəhərinə çevrilmiş və Dərbənd, Niyazabad, Bakı şəhərləri ilə bərabər Azərbaycanın həm iç, həm də xarici ticarətində önəmli paya sahib olmuşdur. Bu zaman Talış bölgəsində 6 məskunlaşma qəsəbəsi; Lənkəran, Astara, Zuvand (indiki Lerik), Sebican(indiki Göytəpə), Vərkəduz(indiki Yardımlı) və Beləsuvar var idi.[14]

1813-cü il 12 sentyabr Rusiya və İran arasında müharibənin sonunda bağlanan Gülüstan müqaviləsinə görə Azərbaycan iki yerə bölünmüş və işğalçılar arasında parçalanmışdır. Talış(Lənkəran) xanlığı başqa xanlıqlar kimi Rusiyanın tərkibinə qatılmışdır.

19-cu əsrin əvvəllərində Lənkəran şəhəri 3 bölümdən ibarət olmuş və şəhərin mərkəzi qala divarları ilə sonlanmışdır. Qalada Rusiya işğalından sonra hərbi qarnizon qurulmuş, bir çox binalar hərbi məqsədlə istifadə olunmağa

---

[13] M.Abbasov. Lənkəran tarixi. Bakı. Marrif nəşriyyatı.s.75
[14] Ziya bünyadov. Azərbaycan tarixi. AzərNəşr. Bakı.1994.s.538

başlanmışdır. 19-cu əsrin 30-cu illərində şəhərdə 441 mənzil və 440-a qədər iaşa məqsədli istifadə oluna tikililər vardı. 19-cu əsrin 50-ci illərində isə şəhərdə mənzillərin sayı 833-ə çatmışdı.

19-cu əsrdə Lənkəranda şəhərin planının yenidən qurulması işlərinə başlanılmışdır. 1833-cü ildə planı qurulmuş və təsdiqlənmiş Lənkəran qalası barrikadalarının əsas planı bu işdə önəmli sayılmaqdadır. Şəhər mərkəzində planlaşmanın özəyi olaraq məscid, 117 dükandan ibarət iki bazar var.

19-cu əsrin sonları 20-ci əsrin əvvəllərində qala meydanı ərazisinin mənimsədilməsi nəticəsində cənub və şimal çöl şəhərləri tam olmaqla, fərqli planlama infrastrukturu olan 4 tarixi bölgə əmələ gəlmişdir. Bunlar Qala, Böyük bazar, Kiçik bazar və Sütəmurduvdur.[15]

**Lənkəranın Coğrafi məlumatları:**

Azərbaycan Respublikasının Lənkəran İqtisadi Regionu Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran şəhərlərinin ərazisini əhatə etməklə Azərbaycanın cənub-şərqində yerləşməktədir.

Azərbaycanın trustik bölgələrindən biri olan Lənkəran ölkənin cənub-şərqində uyğun fiziki-coğrafi ərazidə yerləşməktədir. Lənkəran Azərbaycan Respublikası daxilində mövcud 5 əyalətdən biridir. Relyefinə görə ərazisinin çoxu düz və dağlıq ərazilərdən ibarətdir və cənuba doğru daha da daralmaqdadır. Yüksək dağ yoxuşunda 200 metr yüksəklikdə, Xəzər dənizi sahilində, okean səviyyəsindən 28 metr aşağıda yerləşməktədir. [16]

---

[15] Ziya bünyadov. Azərbaycan tarixi. AzərNəşr. Bakı.1994.s.548

[16] N.Allahverdiyev, Ş.Göyçaylı, Ş.Dəmirağayev və N.Eyyubov.Azərbaycan Respublikasının İqtisadi və Sosial Coğrafiyası. AMEA Coğrafiya İnstitutu Nəşriyyatı. Bakı, 2004.s.24

Lənkəranın hava durumu ərazinin bəzi özünə xas yönləri ilə gözə çarpmaqdadır. Lənkəranın şərqi və cənub-şərqi sonlarının Xəzər dənizi ilə sərhədlənməsi və cənubda dağlıq ərazilərin kəskin formada sahil boyunca enişi Xəzərin üzərindən gələn su buxarının kondensasiyası üçün uyğun vəziyyət yaratmışdır.

Lənkəranın havası nəm, subtropikaldır. Bu iqlim qışı mülayim, yayı quru, isti və payızı isə bol yağışlı keçir. Günəş radiasiyası 125 – 134 kkal/$sm^2$ olur. Ən isti ayı iyul (45 $^0$C), ən soyuq ay isə yanvar ayıdır (3 – 4 $^0$C). Yağışın illik miqdarı 1400 – 1600 mmdir. Nəm, subtropikal iqliminə görə ərazidə sarı torpaqlar geniş yayılmışdır.

Lənkəran axarsu şəbəkələrin daha çox olduğu bir bölgədir. Bəşurçay, Lənkərançay, Veravulçay, Xanbulançay, Boladiçay və digər çaylar yağış sularından qaynaqlanmaqdadır və Xəzər dənizinə tükülməktədirlər. Çaylar yaz və payız mövsümlərində sudan çox zəngin olurlar. Çayların suyundan əkin sahələrinin sulanmasında istifadə olunması üçün Xanbulançay su anbarı və suvarma şəbəkələri qurulmuşdur. Təbii su qaynaqlarından su əldə etmə potensialı illik həcmi 66 milyon $m^3$ – dir.

Xəzərin Lənkəran sahili yaxınlarında neft və qaz yataqları olan 4 perspektiv ərazi mövcuddur. Lənkəran dəniz adlı ərazidə örnək araştırmalar aparılmış və bilgilərə görə o ərazidə zəngin neft və qaz rezervləri aşkar edilmişdir.

Lənkəranın bitki və heyvanlar aləmi daha da zəngindir. Fərli və nadir bitkilərin məkanı olan Talış meşələri dünyaca məşhurdur.

Əlverişli iqtisadi – coğrafi ərazisi, möhtəşəm təbiəti, qədim dünyanın güclü dövlətləri ilə əlaqəsi, qərbə şərqi birləşdirən əsas karvan yolunun qovşağında və Xəzərin sahilində yerləşməsi onun inkişafını sürətləndirmiş və

1743-cü ildə Lənkəran Talış xanlığının paytaxtı olmuşdur. Bərəkətli torpaqları, bol suyu və ılıq havası düyü tarlaları və əkinçilik xalqın ən qədimməşğulliyəti olmuşdur. Bununla bərabər kətənçilik, bağçılıq, ipəkçilik, arıçılıq, ovçuluq, balıqçılıq və heyvançılıq da inkişaf etmişdir. Dəmirçilik, misgərlik, zərgərlik, gəmiçilik və digər sənət növlərinin inkişafı Lənkəranı sənətçilər şəhərinə çevirmişdir.

**Sosia-iqtisadi məlumatlar**

01.01.2017-ci il statistikasına görə regionun əhali sayı 917min 800 nəfərdir. Əhali sayının 51.4 faizi qadın, 48.6 faizi isə kişilərdir.

Lənkəranda potensial işçi qüvvəsi vardır. İşləyən insan sayı iqtisadi fəal qismin 79.7 faizini təşkil edir. İşləyən insanların 1.9 faizi sənayedə, 1.3 faizi inşaatda, 60.2 faizi kənd təsərrüfatında, 2 faizi nəqliyyat sahəsində, 17.6 faizi ticarətdə, 0.1 faizi maliyyə rabitəsində, 1.3 faizi dövlət qurumlarında, 8 faizi təhsildə, 2.5 faizi səhiyyə qurumlarında, 1.7 faizi mədəniyyət və digər sosial xidmətlərdə çalışanlardır.

Cədvəl 1. Lənkəran iqtisadi rayonunun sosial-iqtisadi göstəriciləri

| | **Ərazi, min kv.km** | **01.01.2017-ci ilin əvvəlinə əhalinin sayı. min nəfər** | **İqtisadiyyatda muzdla işləyənlərin sayı, min nəfər** | **İqtisadiyyatda muzdla işləyənlərin orta aylıq əməkhaqqısı, manatla** |
|---|---|---|---|---|
| **Lənkəran iqtisadi rayonu** | **6,07** | **917,8** | **70,3** | **276,6** |
| Astara rayonu | 0,62 | 106,5 | 9,5 | 264,5 |
| Lənkəran şəhəri | 1,54 | 225,2 | 22,2 | 262,5 |
| Yardımlı rayonu | 0,67 | 65,2 | 4,8 | 273,7 |
| Masallı rayonu | 0,72 | 221,5 | 14,9 | 299,9 |
| Cəlilabad rayonu | 1,44 | 216,6 | 13,2 | 289,9 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

Lənkəran regionunda 917min 800 nəfər insan  yaşamaqdadır. Əhali sıxlığı hər kvadrat kilometrə 151 nəfər düşməktədir. 30faiz insan şəhərdə, 70 faiz insan isə kəndlərdə məskunlaşmışlar.

Lənkəran-Astara iqtisadi regionunun əsas xəttini kənd təsərrüfatı sənayesi kompleksi təşkil etməkdədir. Nəmli subtropikal hava, məhsuldar torpaqlar, su və yetərli əmək gücü təsərrüfatın inkişafı üçün böyük imkanlar təmin etməktədir.

Region ərazisinin torflu torpaq örtüyü regionda tərəvəzçilik, çayçılıq, üzümçülük və buğda istehsalını inkişaf etdirmişdir. Azərbaycanda istehsal olunan çayın 99faizi, tərəvəzin 27 faizi, buğdanın 15 faizi, kartofun 24 faizi, üzümün 13 faizi, meyvənin 10 faizi bu iqtisadi regionda istehsal olunmaqdadır. Masallı, Lənkəran, Astara bölgələrinin düzən ərazisində, əsasən çayçılıq və tərəvəz-bostan kimi təsərrüfat sahələri ilə ixtisaslaşmışdır. Üzümçülük ümumilikdə Cəlilabad bölgəsində geniş yayılmışdır. Lerik və yardımlı bölgəsi isə əsas buğda istehsalı, heyvandarlıq və tütünçülüklə məşğuldur. İqtisadi bölgə sitrus meyvələri ilə məhurdur. Sahildə balıq ovlanmaqdadır.

Lənkəran iqtisadi regionunun sənayesi təsərrüfat xammadəsi üzərində inkişaf tapmışdır və böyük qismi bitki və balıq istehsalı emalına əsaslanmaqdadır. Sənaye istehsalının 90 faizi qida sektorundadır. Qida sənayesində balıq istehsalı (Nərimanabad fabriki, Lənkəran balıq konserva fabriki), çay, meyvə - tərəvəz konservası, şərab istehsalı və tütün istehsalı önəmli paya sahibdir. Əlavə olaraq, ət, süd, pendir, çörək bişirmə sexi kimi müəssisələri vardır. İqtisadi regionun ərazisində inşaat məhsulları, mebel istehsalı, avtomobil təmiri, cihaz qayırma, mexanika təmiri və təsərrüfat nəqliyyatlarının təmiri müəssisələri vardır. Lənkəran bölgəsi quşçuluq sənayesi də inkişaf tapmaqdadır.

Gözəl təbii peyzaj, isti və soyuq mineral sular, uyğun hava şəraiti və inkişaf etmiş nəqliyyat toru bölgədə resort və turizmin inkişafına imkan verən göstəriciləridir. İndi bölgədə Lənkəran turist bazası, Meşəsu müalicə mərkəzi

fəaliyyət göstərməktədir. Regionda universitet (Lənkəran Dövlət Universiteti), 4 kollec (Cəlilabad Tibb Kolleci, Masallı Regional Kolleci, Lənkəran Humanitar Kolleci, Astara Pedaqoji Kolleci), orta məktəblər, xəstəxanalar, dram teatrı, diyarşünaslıq muzeyi və digər sosial mərkəzlər vardır.

Lənkəranda təsərrüfat geniş yayılmışdır. 20-ci əsrin ilk yarısında çay bitkisi Azərbaycana də gətirilmiş və 1932-ci ildə Lənkəranda ilk çayçılıq təşkilatı (Kirov adına sovxoz) təşkil edilmiş və 50 hektar ərazidə çay əkilmişdir. Daha sonra bölgədə ikinci çayçılıq təşkilatı - Avrora sovxozu qurulmuşdur. Daha sonra çay plantasiyaları qurulmuş, çayçılığın, çay sənayesinin inkişafı adına işlər görülmüşdür. 1970-1985-ci illərdə çayın istehsalı və paketlənməsi ilə məşğul olan 5 fabrik yaradılmışdır. Dünya sərgilərində sərgiya qoyulan Aərbaycan bitki çayı 1981-ci ildə qızıl medal mükafatı almışdır. 1988-ci ildə Lənkəranda yaşıl çay yarpağı istehsalı rekoru 16335 ton, çayçılıqda ortalama məhsuldarlıq 4.7 tona çatmışdır. Lənkəran çayı bu ərəfədə sadəcə Lənkəranda deyil, Sovet Sosialist Respublikalarında və dünyada məşhurluq qazanmışdır.

1998-ci ildə istehsal 294 ton olmuşdur ki, bu 1988-ci ilində kindən 55.6 faiz daha azdır. 2000-ci ildə 551 ton yaşıl çay istehsal edilmişdir ki, bu da 1999-cu ildəki istehsalla 392 ton və ya 41.6 faiz fərq deməkdir. Son illərdə bu sahənin inkişafı üçün bir çox addımlar atılmışdır. 2000-ci ildə Lənkəran Çay-1 və Çay Çəkici fabriki xarici şirkətlərlə (Türkiyənin Azərsun şirkəti ilə) birlikdə işləməyə başlamışlar.

Lənkəranda tikilmiş Lənkəran meyvə- tərəvəz konserva fabriki bu sektorun inkişifaında müsbət addım olmuşdur. Fabrik illik 85 milyon konserva istehsalı edə bilmək gücündədir. Lənkəran meyvə tərəvəz müəssisələrinə sadəcə Lənkərandan deyil, qonşu bölgələrdən də, meyvə tərəvəz gətirilməktədir. Lənkəran ət məhsulları istehlakçısından istehsalçısına çevrilmiş və daxili tələbi qarşılamaqdadır.

Lənkərana sitrus diyarı da deyilir. Burada qaymaq ağacı, mandarin, portağal, kinkan, limon və digər bitkilər yetişməktədir. SSR-nin süqutundan sonra, iqtisadi əlaqələrin qopması və satış bazarının itirlməsi ağac əkilməsi bağlı işləri yavaşıtmışdır.

Lənkəran inkişaf etmiş bir sənaye bölgəsidir. Sərbəst balansda olan 27 sənaye müəssisəsi və ölkənin böyük sənaye müəssisələri, istehsal birlikləri lənkəranda fəaliyyət göstərməktədir. İqtisadi eliminin bütün sahələrində yüksəsk və orta peşə təhsilli yetərincə işçi heyətinə mənsubdur.

Yetərincə keçiş yolları və yük daşıma toplama məntəqələri olan dəmir yolu və hava limanının olması Lənkəranın yol-nəqliyyat qovşağının önəmini artırmaqdadır. Keçən dövrlərdə iqtisadi problemlər, cənub bölgəsinin tək hava limanı Lənkəran hava limanı fəaliyyətini dayandırmışdır. Sərnişin və yük daşıma quru və dəmir yolları ilə daşınmaqda idi.

İqtisadiyyatın bütün sahələrinədə yenidən qurmalar aparılması davam etdirilmişdir və etdirilir. Bu günə qədər 600-dən çox nəsnə və cihaz özəlləşdirilmiş, 30-dan çox orta və böyük ölçüdə müəssisə anonim şirkətə çevrilmişdir. Geriyə qalan ticarət və petrol ofislərinin özəlləşdirlməsi isə bitməktədir. İqtisasdiyyata yad sərmayənin təşviqinə özəl önəm verilməktədir. Dünya Bankı layihə başlanğıcından bu yana 1 milyard yarım manatdan çox kredit vermişdir.

## 2. Azərbaycanın cənub regionunun turizmin inkişaf imkanları və turistik quruluşu.

Azərbaycan turizmi bəlli dövrlərdə böyük inkişaf göstərmişdir, Lənkəran turizmi də bu inkişafdan kənarda qalmamışdır. Lənkəranda turizmin ilk inkişaf dövrü 1960 və 1990-cı illər arasına təsadüf edir. İkinci inkişaf dövrü Lənkəran

İqtisadi Bölgəsi üçün Turizmin İnkişafına dair Dövlət layihəsinə istinadən 2007-ci ildə başlanmış və 2017-ci ilə qədər davam etmişdir.

Yuxarıda göstərildiyi kimi regionun əsas inkişaf dövrü 1960-cı illərə dayanır. Buna səbəb kimi Lənkəran bölgəsinə Bakıdan 1951-ci ildə dəmir yolunun açılması və 1956-cı ildə Lənkəran-Bakı quru yolunun təmirinin bitməsidir. Bu hadisələrdən sonra Lənkəran bölgəsində davamlı olaraq, arxa-arxaya turizm müəssisələri qurulmaya başlayır və bu bölgə SSR-də olmayan iqlim özəlliklərinə görə SSR-nin turistik bölgələri arasında önəmli yer almağa başlayır. Dənizin, meşələrin çox nadir iqlim və coğrafi özəlliklərin bir arada mövcud olması turizmin bu bölgədə sürətlə inkişafına dəstəkləyir.

1963-cü ildə Lənkəran və Masallı şəhərlərində “İsti su” sanatoriya müəssisələri qurulur. 1967-ci ildə Lənkəranda “Xəzər” oteli və “Xanbulan Çay” istirahət təsisatı inşa edilmişdir.

Turizm mütəxəsislərinə görə, 1947-1987-ci illər arasındakı dövr, Lənkəran bölgəsinin ən çox turist qəbu etdiyi dövrdür. 1987-ci il də turist axınının çoxalmasına görə burada 300 yataqdan ibarət yeni otelin tikilməsinə başlanmışdır. Buna səbəb 1972-ci ildə Lənkəran şəhərində hava limanının açılması, Bakı-Lənkəran və Lənkəran-Bakı daimi xəttinin və yaz aylarında Moskva-Lənkaran və Lənkəran-Moskva xəttinin açılmasıdır.

Azərbaycan Respublikası “Turizmin İnkişafına dair Dövlət Proqramı”nda (2007-2018) Lənkəran iqtisadi regionu üçün görülən tədbirlər bunlar idi:

Sərnişin və yük nəqliyyatı xidmətləri məqsədi ilə Ələt – Astara dört zolaqlı avtomobil yolunun inşası, Astara (Azərbaycan) və Astara (İran) yeni dəmir yolu xəttinin inşası və yol nəqliyyat sistemini yaxşılaşdırmaq məqsədi ilə bölgələr arası və bölgə daxili yolların yenidən qurması və təmirinin edilməsi,

1. Elektrik enerjisi, qaz və isidici terminalının yaxşılaşdırılması məqsədi ilə enerji, qaz və isidici sistemlərin inkişaf etdirilməsi
2. Sosial xidmətləri yaxşılaşdırmaq üçün yaşayış nöqtələrinin su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırmaq.
3. Bölgənin mövcud potensialından istifadə və əhalinin məşğuliyyətini artırmaq məqsədi ilə turizmin inkişafına dair xüsusi tədbirlərin hazırlanması və həyata keçirilməsi
4. Nəqliyyat və yol sistemini yaxşılaşdırmaq məqsədi ilə Astara yük terminalının inşasını dəstəkləmək
5. Sərnişin və yük daşıma xidmətlərini yaxşılaşdırmaq məqsədi ilə Astara çayının üzərində avtomobil və dəmir yolu xətlərinin keçməsi üçün körpü tikilməsi
6. Astara şəhərinin əhalisini içməli su ilə təmin etmək üçün su təchizatı və kanalizasiya borularının yenidən inşası
7. Lerik bölgəsinin mövcud potensialından istifadə və xalqın məşğuliyyətini təmin üçün dağ turizminin inkişafı üçün yeni layihələrin hazırlanması və həyata keçirilməsi
8. Qədim xalq sənətinin qorunması, xalqın məşğulluq faizini yüksəltmək üçün xalq sənətkarlığının və xalçaçılığın inkişafı üçün yeni layihələr hazırlanmalı və həyata keçirilməli
9. Lerik bölgəsində turizmin inkişafı məqsədi ilə “Uzun ömürlülər torpağı” adlı əlli nəfərlik turizm-istirahət və əyləncə mərkəzinin inşasına dəstək vermək
10. Turizmin inkişafı məqsədi ilə Lənkəran-Lerik yolunun 27-ci kilometrliyində “Təbəssüm” adlı əlli nəfərlik turizm-istirahət və əyləncə mərkəzinin inşasına dəstək verilməsi
11. Şəhər əhalisinin su ehtiyacını qarşılamaq və kanalizasiya xidmətlərinin daha yaxşı səviyyəyə çatdırılması məqsədi ilə Lənkəran şəhərində qaz, su və kanalizasiya sistemlərin yenidən inşası

12. Lənkəran şəhərində sərnişin gəmilərinin sahilə yanaşa bilmələri üçün Ləkəran Dəniz Limanının və körpünün inşasını dəstəkləmək
13. Lənkəranda turizmin inkişafı üçün dəniz sahilində altmış nəfərlik köhnə "Sovtransavto"un yenidən inşası
14. Lənkəranda turizmin inkişafı məqsədi ilə "Dairəvi Qala" binanısının yenidən təmiri
15. Lənkəranda turizm xidmətlərinin inkişafı üçün Haftoni qəsəbəsində yüz əlli nəfərlik "Lənkəran" istirahət yerinin yenidən təmiri
16. Elektrik enerji təchizatının yaxşılaşdırmaq məqsədi ilə Masallıda iki yüz iyirmi kv-lıq Şirvan SES-Masallı və iki yüz iyirmi kv-lıq Masallı-Astara elektrik ötürücüsünün inşası
17. Turizmin inkişafı üçün Qəriblər kəndində yüz atımış nəfərlik "Qaplıca" istirahət mərkəzinin yenidən inşası
18. Yardımlıda qədim xalq sənətlərinin qorunmması inkişafı üçün xalq sənətlərinin və xalçaçılığın irəli çəkilməsi üçün proqramların həyata keçirilməsi
19. Əhalinin suya olan ehtiyacını qarşılamaq məqsədi ilə Yardımlının su təchizatının yaxşılaşdırılması

Lənkəran – Asatara regionunun trustik tədarük potensialı.

Yol – nəqliyyat sistemi, qonaqlama tədarükü, yemək – içmək tədarükü, əyləncə kimi trustik tədarük ən önəmli konkret tərəflərini yaradır.

Qonaqlama tədarükü

Lənkəran bölgəsində hal-hazırda işləyən 12-dən çox otel və 4 istirahət müəssisəsi vardır. Bunlar Lənkəran şəhərində “Xəzər”, “Qala”, “Palmalife”, “Dalğa”, “Qafqaz” və “Palıdlı sahil”, “Xanbulan”, “İsti su” termal müəssisəsi, Masallıda yerləşən “Masallı”, “Dəstvənd” və “Rasim” otelləri, Lerikdə “Relax”, “Türkan” və “İsti su” termal – istirahət müəssisəsi və Astarada yerləşən “Astara” və “Savalan” otelləridir. Burada həmçinin turistlər üçün kirayə evlər də mövcuddur. Lakin kirayəyə verilən bu evlərdə turizm xidmətlərinin keyfiyyəti, təhlükəsizlik (yanğın, sğorta və b.) və sanitariya göstəriciləri aşağı ola bilər.

Yemək – içmək tədarükü

Lənkəran regionunda böyük və kiçik bir çox restoran və kafelər mövcuddur. Bunlardan ən böyükləri Lənkəranda yerləşən, milli mətbəxin zənginliyini və ləzzətini əks etdirən “Sahil”, “Dalğa”, “Yaşıl ada”, “Titanik”, “Meşəçi” restoranları, Masallıda yerləşən “Turac”, “Moskva”, “Dəniz”, “Dəstvənd”, “Türkan”, “Dəmirağac” kimi restoranlardır. Bunların xaricində Lerikdə “Təbəssüm”, “Həyat” və “Elgün” restoranları, Astarada “Sahil” restoranı yer almaqdadır.[17]

Yol – Nəqliyyat sistemləri

Lənkəran iqtisadi regionunun iqtisadi inkişafında yol – nəqliyyat sisteminin önəmli payı vardır. Bakı – Astara dəmir yolu, ona paralel quru yolu, yük daşımasında, Azərbaycan – İran arasında iqtisadi əlaqələrin inkişafında önəmli rola sahibdir. Bakı – Lənkəran, Lənkəran – Naxçıvan, Lənkəran – Gəncə, Lənkəran – Moskva uçuş xətti də vardır. Dəniz yolu sərnişin daşıma məqsədi ilə 1954-cü ildən istifadə edilməktədir.

Lənkəran regionuna nəqliyyat yolları aşağıdakı kimidir:

---

[17] M.M.Ağakərimov, S.İ.Babazadə. Ekskursiya və Ekskursiya bələdçisi. “Oskar”nəşriyyat, Bakı, 2006, s.79

Quru yollar:

1. Bakı – Lənkəran
2. Bakı – Masallı
3. Sumqayıt – Masallı
4. Gəncə - Masallı
5. Mingəçevir – Masallı
6. Şirvan – Masallı
7. Bakı – Yardımlı
8. Bakı – Astara
9. Bakı – Cəlilabad avtobusları

Qatar yolları:

1. Bakı – Astara
2. Moskva – Astara

Hava yolları:

1. Bakı – Lənkəran
2. Lənkəran – Naxçıvan
3. Lənkəran – Gəəncə
4. Lənkəran – Moskva

Regionun turist profili

Bu regionun turist profilini ümumi olaraq aşağıdakı kimi qruplara ayıra bilərik:

1. Azərbaycanda yaşayan təbiət düşkünləri
2. İrandan gələn azərbaycanlı turistlər
3. MDB (Müstəqil Dövlətlər Birliyi) məkanında yaşayan və işləyən yay tətilində vətəninə gələn bölgə vətəndaşları
4. Azərbaycanda işləyən xarici vətəndaşlar
5. Nadir quş və bitki növləri ilə maraqlanan xaricilər
6. Bu regionda yerləşən isti su və termal bulaqlarda müalicə alan insanlar

## 3. Azərbaycanın cənub regionunun alternativ turizm imkanlarının dəyərləndirilməsi.

Bir ölkənin və ya bölgənin turistlərə təqdim etdiyi xidmətlərin tamamı turistik məhsulu yaratmaqdadır. Məhsullar, mövcud ərazinin sahib olduğu təbii

və tarixi dəyərlər ilə sayıla bilər. Sayıla bilən bütün tədarüklər, turizmi birbaşa və ya dolayı yol ilə təsir edə bilər.

Xizək və Dağ turizmi

Bölgə dağlıq ərazidə yerləşdiyindən bir çox dağ turizm növlərinin inkişafı üçün əlverişlidir. Bu baxımdan əlverişli bölgələr Lerik, Astara və Yardımlıdır. Talış dağlarının ən uca zirvələri  Kömürgöy (2493 metr) və Qızyurdudur (2433 metr)

Lənkəran iqtisadi rayonunda inkişaf üçün potensial sahibi olan digər bir ekoturizm növü dağ turizmidir. Bu turizm növü üçün Talış dağları olduqca əlverişli təbiətə malikdir. Bildiyimiz kimi müasir zamanda turistlərin ən çox pul xərclədikləri turiz sahəsi ekstrim turizm növüdür. Bu baxımdan Lənkəranda dağ turizminin inkişafı vacibdir. Lakin bu ekoturizm növü digərləri ilə müqayisə edildikdə daha xərc tələb edən olduğu görülür. Bunun səbəbi burada turistlərin təhlükədə olmasıdır.[18] Bu sahəyə turistlərin diqqətini çəkmək o qədər də çətin deyil.

Mədəni turizm

Turistlərin çoxu mədəni və böyük abidələri görmək üçün səyahət etməktədirlər. Mədəni turizm sayəsində turistlərlə yerli əhali arasında yaxınlıq olmaqdadır. Yerli əhalinin adət - ənənələri haqqında, milli mətbəxləri haqqında, musiqiləri ilə əlaqəli məlumata sahib olmaları gərəklidir. Mədəni turizmin yerli xalqla bağlılığının üç əsas sahəsi mövcuddur:

1. İqtisadi imkanları əks etdirir.
2. Mədəniyyətin qorunması üçün maliyə ehtiyaclarını qarşılayır və mədəni abidələrin qorunmasını həyata keçirir.

[18] Səbuhi Əfəndizadə. Ekoturizm və onun Azərbaycanda inkişafı perspektivləri. Bakı, 2005.s.63

3. Düzgün ikişafın və idarəçiliyin olmadığına görə mədəniyyət üçün böyük təhlükə yarada bilər.

Dini turizm

Turizmin qədim növlərindən biri olan dini turizm insanların dini inancları ilə bağlı olmuş və onlara səyahətə getmələri üçün ruh yüksəkliyi verməktədir. Bu sahə fərqli dinlərə mənsub insanların dini ehtiyaclarını qarşılamqla, onların rahatlığını təmin etmək məqsədi ilə səyahət etməyə, müqəddəs yerləri ziyarət etməyə sövq etməkdir.

Lənkəran ərazisi mədəni, tarixi abidələrlə zəngindir. Eyni zamanda bir çox dini mərkəzləri mövcuddur. Bölgədə olan dini mərkəzlər və pirlər ceşidli dini mərasimlərdə və bayramlarda dindarlar tərəfindən ziyarət edilməktədir.

Lənkəran iqtisadi rayonunda yaşayan xalq dini ənənə və adətə bağlı insanlardır. Xaricdən gələn turistlərin bu kimi yerlərə marağı beynəlxalq təcrübədə sübut olunmuşdur. Bu baxımdan bu turizm növünün regionda inkişafı qaçınılmazdır. Əhalinin dini turizmə qatğısı açıqdır. Ancaq onlar öz adətlərini və dini baxışlarını sərgiləməktədir.

Dini qurumlara dövlət tərəfindən xüsusi diqqət göstərilir. Dini turizm ziyarətinin fəaliyyət göstərməsi yeni iş yerlərinin açılmasına zəmin yaradır.

Ov turizmi

Ov rezervləri ilə zəngin olan bölgələrdə bu rezervlərdən faydalanmaq, turistləri özünə cəlb edən bir turizm növü olan ov turizminin inkişafına yol açmışdır. Ov turizmi digər turizm növlərindən fərqli olaraq, çox böyük gəlir qaynağıdır. Bunun əsas səbəbi ov turizmi ilə maraqlanan turistlərin varlı insanlar olmasıdır. Bunlar həm yerli, həm də xarici vətəndaşlar ola bilərlər.

Azərbaycanda vəhşi və əhliləşmiş 97 növ məməli heyvan, 346 növ quş və 95 növ balıq vardır.[19] Lakin ov ilə bağlı yetəri qədər qanuni infrastrukturun olmaması bu turizm növünün inkişafını gecikdirmişdir. Azərbaycanda bir çox rayonlarda ovçuluq fermaları qurulmuşdur. Bu tip müəssisələrin Lənkəran iqtisadi regionunda da qurulması ov turizminin inkişafı baxımından olduqca yararlı olacaqdır.

Dəniz (Dəniz turları, adalara gəzintilər, dəniz, qum və günəş) turizmi

Lənkəran iqtisadi rayonu üçün ən əlverişli turizm növlərindən biri dəniz turizmidir. May ayının 20-dən etibarən havanın istiliyi 25 – 28 $^0$C arasında dəyişməkdədir. Bu zamandan sonra Avqust ayının sonuna qədər istilik artmaqdadır, sentyabr ayının 20-nə qədər havanın istiliyi 25 – 28 $^0$C dərəcəyə enməkdə və bu aylar dəniz turizmi üçün ən yararlı zaman olmaqdadır.[20] Bölgədə artık bu yöndə bu istiqamətdə bir neçə istirahət müəssisələri turistlərin xidmətinə verilmişdir. Eyni zamanda buranın dalğıc turizmi üçün çox böyük imkanlar vardır. Adanın tarixi çox qədim olduğu üçün burada sualtı arxeoloji dalğıcların həyata keçirilməsi mümkündür. Həm dəniz, həm də təbiətin qoynunda yerləşən bölgədə dünyada bənzəri olmayan turizm növünü inkişaf etdirmək çox faydalı və gəlirli olacaqdır.

Masallı rayonunun müstəqil olaraq dənizə çıxma imkanı vardır. Dənizə 20 km olan məsafədə yol çəkilməkdədir. Beləcə, Masallı əhalisinin və rayona gələn turistlərin dənizə getməsi üçün Lənkərana qədər getmələrinə ehtiyac qalmayacaq.

Turizm Agentlikləri

---

[19] Budaq Budaqov və Yaqub Qəribli. Azərbaycan Respublikasının fiziki coğrafiyası. Təhsil nəşriyyatı. Bakı, 2003.s.43

[20] S.Rəhimov. Turizm – Ekskursiya işinin təşkili. Bakı, 2004.s.72

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin 2005-ci ildə verdiyi məlumata görə bölgədə 177 turizm şirkəti və 245 turizm mərkəzi mövcuddur. Bunlardan 106-sı 2001 – 2005 illərində yaradılmışdır. Azərbaycan bütün ölkələrlə turizm sahəsində iş birliyi etməyə çalışmaqdadır. Bu sahədə turizm sektorunun yardımları danılmazdır.

Ölkədə işlək turizm agentlikləri və tur ofislərinə örnək olaraq aşağıdakıları göstərə bilərik; STI Travel, RAENA Travel şirkəti, “PaşaTravel” şirkəti, ATA Travel Agency, “Orient Express” Travel & Rent a car şirkəti, Miray Travel şirkəti, “Millennıum Turizm, Konqres DMC” MMC şirkəti, Magic-Tur Travel Agency agentliyi, “Caspian İnvest Commerce” şirkəti, Yevroturizm şirkəti, Caspian Travel şirkəti, B.T.S (Bakı Travel Service) şirkəti, “AZİNTERTUR” firması və digər bir çox irili – xırdalı şirkətlər.

**Cədvəl 4. Səyahət agentlikləri və tur operatorların əsas göstəriciləri**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| **Turizm fəaliyyəti ilə məşgul olan işçilərin umumi sayı (göstəricisi)** | 1541,0 | 1730,0 | 1729,0 | 1794,0 | 1586,0 | 1838,0 |
| **Seyahət agentlikləri və tur operatorların sayi (göstəricisi)** | 141,0 | 170,0 | 197,0 | 218,0 | 243,0 | 272,0 |

Mənbə: https://www.stat.gov.az/

## Nəticə və Təkliflər

## Nəticə

Diplom işi dissertasiyasında turizmin tarixi inkişafı, respublikamızın regionlarının turizm potensialının araşdırılması, xüsusi ilə də, Cənub regionunun turizm imkanları, həmçinin bölgədə trustik infrastrukturun inkişafı barədə statistik göstəricilərdən, tarixi, coğrafi və sosial – iqtisadi araşdırmalardan ibarətdir.

Respublikamız 1991-ci ildə Sovet Sosialis Respublikasının süqutu nəticəsində əldə etdiyi müstəqillikdən sonra müəyyən bir müddət durğunluq dönəmi yaşasa da növbəti illərdə istər iqtisadi, istərsə də sosial cəhətdən dirçəliş göstərmiş və hal – hazırda inkişaf etməkdədir. Müstəqillik əldə etdikdən bu yana regionların iqtisadiyyatının, xüsusən də, Lənkəran – Astara bölgəsinin inkişafı üçün dövlət başçımız tərəfindən bir neçə sosial – iqtisadi islahatlar həyata keçirilmişdir.

Ötən iyirmi il ərzində Lənkəran – Astara bölgəsinin turizmlə bağlı fəalliyyəti müstəqillikdən əvvəlki dövrlərə nisbətən fərqli inkişaf yolu tapmışdır. Sözsüz ki, son dövrlərdə region ərazisinə edilən turizmlə bağlı yatırımlar nəticəsində region ərazisində yeni – yeni iş imkanlarının meydana gəlməsinə, əhalinin orta yaşayış göstəricilərinin artmasına və region ərazisinə investorlar tərəfindən yatırılmış investisiyalar nəticəsində yüksək mənfəət əldə olunmuşdur.

## Təkliflər

Diplom işini yazarkən, apardığım araşdırmalar zamanı regionda turizmlə bağlı bir neçə çatışmazlıqların olduğunu fərqinə vardım. Buna nəzərən, regionda yerləşən qonşu ölkələrlə müqayisədə qiymətlərin xidmət səviyyəsinə görə yüksək olması, kadr çatışmazlığı, otel, hostel və mehmanxana seçiminin az

olması, gigiyenik təmizliyin nisbətən aşağı olması və kirayəyə verilən evlərə olan nəzarətin zəifliyini deyə bilərik.

Təklif edirəm ki, regionlarda otellərin seçimlərini artırmaq lazımdır, məsələn, turistlərin səyahət etdikləri yerlərdə gəzintiyə üstünlük verdikləri üçün onlara yalnız gecələməyə yerlər lazım olur. Buna görə də yalnız beş ulduzlu otellərə üstünlük vermək yox, həmçinin aşağı ulduzlu və uyn qiymətli otel və hostellərini sayını çoxaltmaq və onların xidmət səviyyəsini artırmaq lazımdır.

Bunlara əlavə olaraq, kirayəyə verilən evlərə dövlət orqanları tərəfindən yoxlanış və nəzarətin artırılması gərəklidir. Yol qırağı restoran və kafelərin gigiyenik təmizliyinə riayət edilməsini tez – tez yoxlamaq lazımdır.

Onu da qeyd etməliyəm ki, turizm sahəsində kadr çatışmazlığını ardan qaldırmaq üçün treninqlər keçirilməli və bu sahədə işləyən kadrların kurs keçmək üçün xaricə getmələrini təmin etmək əsas amillərdəndir.

Əgər belə hallar aradan qaldırılarsa, turizm sektoruna investor axını daha çoxalar və bu hallara görə turizm sektoruna investisiya yatırmaqdan boyun qaçırmış şəxslərin diqqətini bu sahəyə yönəltmək mümkün olar.

İstifadə olunmuş **Ədəbiyyat** siyahısı

1. Cabir Məmmədov və Sabir Rəhimov. Turizm və onunla əlaqəli Anlayışların İzahlı lüğəti. Qanun nəşriyyatı. Bakı, 2009.
2. Ziya bünyadov. Azərbaycan tarixi. AzərNəşr. Bakı.1994.
3. A.A.Salmanov və V.S.Dergehov. Böyük İpək yolunun Azərbaycanda Turizmin İnkişafındakı Rolu və Neft Siyəsəti ilə əlaqəsi. Azərbaycan

Respublikası İqtisadiyyat Nazirliyi- İqtisadi İslahatlar Mərkəzi, Elmi əsərlər, 1ci buraxılış, Bakı.2001.
4. S.Hüseynov, E.Zəngin. Azərbaycan Turizm. Elmi konferans materialları. Bakı, 2008.
5. Zakir Eminov. Azərbaycanın fiziki və iqtisadi coğrafiyası. Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutu Nəşriyyatı, Bakı, 2002.
6. M.Abbasov. Lənkəran tarixi. Bakı, Marrif nəşriyyatı.
7. N.Allahverdiyev, Ş.Göyçaylı, Ş.Dəmirağayev və N.Eyyubov.Azərbaycan Respublikasının İqtisadi və Sosial Coğrafiyası. AMEA Coğrafiya İnstitutu Nəşriyyatı. Bakı, 2004.
8. M.M.Ağakərimov, S.İ.Babazədə, Ekskursiya və Ekskursiya bələdçisi. “Oskar”nəşriyyat. Bakı, 2006
9. Səbuhi Əfəndizadə. Ekoturizm və onun Azərbaycanda inkişafı perspektivləri. Bakı, 2005
10. Budaq Budaqov və Yaqub Qəribli. Azərbaycan Respublikasının fiziki coğrafiyası. Təhsil nəşriyyatı. Bakı, 2003.
11. S.Rəhimov. Turizm – Ekskursiya işinin təşkili. Bakı, 2004.
12. Hakim İsakov. Azərbaycan Respublikasının “Böyük İpək Yolu”nun bərpasında iştirakı (1991-2005). “Şərq – Qərb” nəşriyyatı. Bakı, 2011.
13. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Turizm və qonaqpərvərlik tədqiqatları. Bakı, 2016
14. İlqar Hüseynov və Nigar Əfəndiyeva. Turizmin əsasları. Bakı, 2007
15. https://www.wttc.org/-/media/files/reports/economic-impact-research/countries-2017/azerbaijan2017.pdf
16. https://www.stat.gov.az/
17. https://az.wikipedia.org/wiki/Trans-Anadolu_qaz_boru_k%C9%99m%C9%99ri
18. http://www.anl.az/down/meqale/medeniyyet/2010/aprel/116654.htm
19. http://www.president.az/articles/20925

20. https://az.wikipedia.org/wiki/Ana_S%C9%99hif%C9%99
21. https://az.wikipedia.org/wiki/Tal%C4%B1%C5%9F_da%C4%9Flar%C4%B1